

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 yanvar 2025-ci il, cümə
№ 004 (6832)
Qiyməti 60 qəpik


## Həmişə bir yerdə!

### Zirvədə olan Azərbaycan Türkiyə münasibətləri dərin tarixi bağlara əsaslanır və çətin sınaqlarda möhkəmlənib



Bax səh. 2



## Azərbaycan Prezidentinin müsahibəsi həqiqət və vicdan duyğusuna dəvətdir

Bax səh. 3

## Təmaslar davam etdiriləcək

**Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta yanvarın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

**Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, Antonio Koşta təyyarə qəzası ilə bağlı dövlətimizin başçısına və Azərbaycan xalqına başsağlığını çatdırıb, Avropa İttifaqının bu qəzanın hərtərəfli araşdırılması ilə bağlı ölkəmizin mövqeyini dəstəklədiyini bildirib.**

**Prezident İlham Əliyev başsağlığına görə təşəkkürünü ifadə edib.**

**Telefon söhbəti zamanı Azərbaycan ilə Avropa İttifaqı arasında nəqliyyat, xüsusilə Transxəzər-Orta Dəhliz marşrutu üzrə daşımalar, Xəzər və Qara dəniz hövzələrini birləşdirən "yaşıl enerji" dəhlizinin yaradılması layihəsi, Azərbaycanın Avropa İttifaqına üzv ölkələrə qaz ixracı və enerji sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Həmçinin təmasların davam etdirilməsi razılaşdırılıb.**

## BMT İlham Əliyevin müraciətini rəsmi sənəd kimi yayıb

Bax səh. 3

## Qərbi Azərbaycan İcması Ermənistanın baş nazirini dialoqa çağırıb




Qərbi Azərbaycan İcması Ermənistanın baş naziri Nikol Paşinyanın bu gün mətbuata verdiyi açıqlamasında Qərbi Azərbaycan məsələsi və Ermənistan-Azərbaycan münasibətlərinin tənzimlənməsinə dair ifadə etdiyi fikirlərin bəzilərinə cavab verib.

İcmanın cavabında deyilir: "Bir daha vurğulayırıq ki, Qərbi Azərbaycan məsələsi ərazi deyil, insan hüquqları məsələsidir. Biz Ermənistanın ərazi bütövlüyü və suverenliyinə hörmət etdiyimizi dəfələrlə ifadə etmişik. Qərbi Azərbaycan termininə gəldikdə, vurğulayaq ki, bu, tarixi həqiqətlərə əsaslanan və bizim özünüidentifikasiya hüququ çərçivəsində istifadə etdiyimiz anlayışdır. Ermənistan hökuməti coğrafi-tarixi məzmunda polemikaya girmək əvəzinə problemin mahiyyətinə dair mövqeyini ifadə etməlidir.

Qərbi azərbaycanlıların qayıdışına dair Ermənistan və Azərbaycan arasında dövlətlərarası dialoqun sülh müqaviləsinin imzalanmasından sonra aparıla biləcəyi barədə Nikol Paşinyanın məhdudlaşdırıcı şərti yanlışdır. Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq Ermənistanın beynəlxalq hüquqdan və insan hüquqlarından irəli gələn öhdəliyidir. Ermənistan Respublikası Azərbaycan Respublikası ilə ikitərəfli münasibətlərinin xarakterindən asılı olmayaraq, Qərbi azərbaycanlıların - indi Ermənistan adlanan ölkənin qanuni sakinlərinin qayıdışına qeyd-şərtsiz şərait yaratmalıdır. Qayıdışa dair dialoqun süni şəkildə sülhdən sonraya saxlanması və yaxud qayıdışı dövlətlərarası dialoqla şərtləndirmək insan hüquqlarına ziddir və sülhün əldə edilməsinə xidmət etmir. Vurğulayaq ki, bu mövzuda əsas dialoq xətti Ermənistan hökuməti və Qərbi Azərbaycan İcması arasında aparılmalı olan formatdır.

Biz baş nazir Nikol Paşinyanı regionda sülh və əməkdaşlığın bərqərar olunması üçün səmimi səylər göstərməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə icmamızla dialoqa başlamağa çağırırıq".

## Bakı COP29-u möhtəşəm iqlim tədbiri kimi tarixə yazdı

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın COP29 sammitinə layiqli ev sahibliyi etməsi və qlobal zirvə görüşündə bir sıra mühüm beynəlxalq miqyaslı razılaşmaların əldə edilməsinə toxunub. Dövlət başçısı COP29-u ölkəmiz üçün böyük bir çağırış və imkan adlandıraraq qlobal iqlim ailəsi tərəfindən həvalə edilmiş bu vəzifəni uğura çevirməkdən ibarət olduğunu xatırladıb.

Azərbaycan vaxtın az olmasına baxmayaraq 11 ay ərzində yüksək hazırlıq qabiliyyəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konransının 29-cu sessiyasına hədsiz dərəcədə uğurla və nümunəvi bir formada ev sahibliyi etdi. 196 ölkədən 72 min iştirakçını ölkəmizdə böyük hörmətlə...

Bax səh. 2

## İrəvanı təşvişə salan MÜSAHİBƏ...

Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına geniş müsahibəsi Ermənistan mətbuatında da geniş işıqlandırılıb. Bu ölkənin KİV-ləri Azərbaycan Prezidentinin fikirlərini, regionun gələcək inkişafı ilə bağlı strateji düşüncələrini, eləcə də qlobal təhlükəsizliklə bağlı düşüncələrini paylaşıb, bu fikirlərə münasibət bildiriblər. "News.am", "Armenpress.am", "Hetq.am", "Panorama.am", "Aysor.am", "Tert.am", "1in.am" (First Armenian News), "Arminfo.info", "Sputnik.am", "Armeniatoday.news" kimi saytlar Azərbaycanın dövlət başçısının fikirlərinə geniş yer ayırıblar. Eyni zamanda, Prezident İlham Əliyevin Cənubi Qafqazın gələcəyi, Ermənistanın silahlanması və bununla da yenidən təhdidə çevrilməsi ilə bağlı fikirlərini şərh ediblər. Xüsusilə, dövlət başçısının yeni siyasi nizamla bağlı fikirləri erməni...

Bax səh. 3

## Ən vacib prioritetlərdən biri

Azərbaycanın 2025-ci il üçün dövlət büdcəsində hərbi və təhlükəsizlik məsələlərinə 8,4 milyard manat vəsait ayrılması nəzərdə tutulub. Postmüharibə dövründə respublikamızın işğaldan azad edilmiş ərazilərin bərpası və "Böyük Qayıdış" proqramlarını həyata keçirməsi kontekstində bu, kifayət qədər böyük rəqəmdir. Axı həmin vəsaitlərin bir hissəsini işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə yönəltməklə bu prosesi daha da sürətləndimək mümkün olardı. Doğru məntiqdir. Ancaq məğlub Ermənistanın sürətlə silahlanmasını və havadarlarının təhriki ilə yeni müharibə hazırlıqları gördüyünü nəzərə aldıqda Azərbaycanın hərbi və təhlükəsizlik məsələlərinə böyük büdcə ayrımasının səbəbəri aydın olur.

Bununla belə, respublikamız işğaldan azad edilmiş ərazilərin bərpasını...

Bax səh. 4

## Öz fikirlərimiz, öz gündəliyimiz var...

Özünün xarici siyasət kursunda əməkdaşlıq, tərəfdaşlıq və təhlükəsizlik amillərini ön plana çıxaran Azərbaycan müasir çağırışlara adekvat cavab verməkdədir. Yeni iqtisadi münasibətlər sisteminin formalaşdığı hazırkı dövrdə ölkəmiz bir sıra parametrlər üzrə qlobal dünyanın diqqətini cəlb edir. Xüsusilə, beynəlxalq aləmdəki real və praqmatik rolu, qlobal təşəbbüskarlığı, iqtisadi inkişaf dinamikasını sürətləndirməsi, qısa zamanda mühüm sosial-iqtisadi yol qət etməsi, bununla paralel olaraq ərazi bütövlüyünün və suverenliyimizin bərpa olunması Azərbaycan üçün mühüm üstünlüklər yaradır. Prezident İlham Əliyevin yürütdüyü siyasət əməkdaşlığa, qarşılıqlı milli maraqların qorunmasına əsaslandığı üçün dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana etimad göstərir, ölkəmizi öz sıralarında görməkdən məmnunluq duyduğunu...

Bax səh. 4



## ABŞ-ın iqtisadi siyasətində radikal dəyişikliklər

Bax səh. 7



## Zelenski: Ukrayna bu il müharibəni bitirmək üçün əlindən gələni edir

Bax səh. 7

# Həmişə bir yerdə!

## Zirvədə olan Azərbaycan Türkiyə münasibətləri dərin tarixi bağlara əsaslanır və çətin sınaqlarda möhkəmlənib

Qarşılıqlı münasibətləri dostluğun zirvəsində dayanan Azərbaycan və Türkiyə arasında siyasi dialoq yüksək dinamizmi ilə fərqlənir. İki ölkənin bir-birinə "əziz qardaşım" deyə müraciət edən liderləri, digər yüksəksəviyyəli rəsmiləri sıx təmaslar quraraq regional və qlobal miqyasda uzlaşdırılmış fəaliyyətlər həyata keçirirlər. Qardaş ölkənin respublikamızda da böyük hörmət bəslənilən dövlət başçısı Rəcəb Tayyib Ərdoğan yanvarın 8-də növbəti dəfə Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı Azərbaycan ilə Türkiyə arasında ikitərəfli münasibətlər, regional və qlobal məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### "Bir millət, iki dövlət" prinsipi əsasında inkişaf edən qarşılıqlı münasibətlər



Müdrik siyasətçi, Türkiyənin böyük dostu Heydər Əliyev zamanında ölkələrimiz arasındakı münasibətləri "Bir millət, iki dövlət" kəlamı ilə səciyyələndirib. Bəhs olunan telefon söhbəti zamanı da həm Rəcəb Tayyib Ərdoğan, həm də İlham Əliyev Azərbaycan-Türkiyə qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin "Bir millət, iki dövlət" prinsipi ilə inkişaf etdiyini xüsusi vurğulayıblar ki, bu da təsadüfi deyil. Azərbaycan və Türkiyənin getdikcə daha da möhkəmlənən münasibətlərinin mahiyyəti və məzmunu digər ölkələr arasındakı əlaqələrdən kəskin şəkildə fərqlənir. Cəmiyyətlərdən könüllü şəkildə gələn istək və dövlətlərin bu istəyə qarşılıq verməsi ikitərəfli münasibətlərimizin özəlliyini səciyyələndirir. Azərbaycan vətəndaşları Türkiyədə, qardaş ölkənin sakinləri isə respublikamızda özlərini doğma evlərindəki kimi hiss edirlər. Belə doğmalıq hissləri, həmçinin hər iki ölkənin dövlət başçıları səviyyəsində dəfələrlə etiraf olunub. Dostluğumuzu sarsılmaz edən çoxsaylı amillər sadalamaq mümkündür. Tarixi bağlar, ənənələr, etiqad eyniliyi, dilin, mədəniyyətin, həyat tərzinin hədsiz oxşarlığı və digər ortaq cəhətlər bu sırada yer alır.

Telefon söhbəti zamanı Türkiyə Prezidenti ölkəsinin Cənubi Qafqaz regionunda davamlı sülhün əldə edilməsinə tam dəstək göstərdiyini deyərək, hər zaman Azərbaycanın yanında olmağa davam edəcəyini bildirib. İş elə gətirib ki, Azərbaycan müstəqilliyinin ilk illərindən bir sıra çətinliklərlə, o cümlədən də Ermənistanın təcavüzü ilə üzləşib. Eyni zamanda, keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycan ayrı ayrı ölkələr və bəzi beynəlxalq təşkilatlar tərəfindən basqılara məruz qalırdı, biz haqlı olduğumuza baxmayaraq, ədalətsiz şəkildə qınanırdıq. Belə çətin məqamlarda Türkiyənin cəmiyyəti və dövləti heç vaxt öz dəstəyini bizdən əsirgəməyib, həmişə haqlı mövqeyimizi müdafiə edib. Türkiyə Azərbaycanın müstəqilliyini ilk tanıyan dövlətdir. Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasətinə cavab olaraq Türkiyə bu ölkə ilə bütün siyasi-iqtisadi əlaqələri dayandırıb. Eyni zamanda, Türkiyə 1993-cü ildən etibarən işğalçı ölkə ilə sərhədlərini bağlayıb. Türkiyə daim o mövqedən çıxış edib ki, artıq tarixdə qalan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq normaları çərçivəsində və suveren dövlətin ərazi bütövlüyünə hörmət prinsipi əsasında həllini tapmalıdır.

Biz Türkiyənin qətiyyətli dəstəyini 44 günlük Vətən müharibəsi zamanı bir daha gördük. Müharibənin ilk günlərindən başda qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan olmaqla əksər yüksəksəviyyəli rəsmiləri Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən bəyanatlarla çıxış etdilər. Türkiyənin bu mənəvi-siyasi dəstəyi Azərbaycana güc verdi. Nəticədə, Silahlı Qüvvələrimiz 44 günlük müharibədə şanlı Qələbə qazanaraq respublikamızın ərazi bütövlüyünü təmin etdi. Postmüharibə mərhələsində də qardaş Türkiyə Azərbaycanın işğaldan azad olunmuş ərazilərdə start verdiyi genişmiqyaslı bərpa işlərində yaxından iştirak edir.

Qardaş Türkiyənin Azərbaycana dəstəyi bu gün də davam edir. Məlum olduğu kimi, müəyyən dairələr hər vəchlə sərhədlərin açılması məsələsini Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən ayırmağa nail olmaq istəyirlər. Bu, Azərbaycanın və Türkiyənin mövqelərini zəiflədər, ermənilərin əlini gücləndirərdi. Ancaq qardaş ölkənin rəsmilərinin sərhədlərin açılmasının Azərbaycanla Ermənistan arasında başlayan sülhyaratma prosesindən kənarda mümkün olmayacağı məzmunlu açıqlamalar vermələri bədxahlarımızın xəyallarını puç edir.

Son olaraq qardaş ölkə Azərbaycanın İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatına (D-8) üzvlük məsələsini davamlı şəkildə dəstəkləyib. Xatırladaq ki, dövlətimizin başçısı İlham Əliyev Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 2017-ci il oktyabrın 20-də qurumun İstanbulda "Əməkdaşlıq yolu ilə imkanları artırmaq" devizi altında keçirilən IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. Prezident İlham Əliyev tədbirdəki çıxışında Azərbaycanın D-8-in üzvü olmamasına baxmayaraq, Rəcəb Tayyib Ərdoğanın ölkəmizi bu tədbirə dəvət etdiyinə görə öz qardaşına dərin təşəkkürünü bildirib və bunu Azərbaycan-Türkiyə dostluğunun bariz nümunəsi kimi dəyərləndirib. Qardaş ölkənin davamlı dəstəyi məntiqi sonluqla nəticələnib. Belə ki, 2024-cü il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində D-8 təşkilatının XI Sammiti zamanı Azərbaycan yekdilliklə qurumun üzvü seçilib.

Telefon söhbəti zamanı bu məqama xüsusi diqqət çəkən Prezident İlham Əliyev ölkələrimizin hər zaman bir-birinin yanında olduqlarını vurğulayıb. Bəli, artıq dünyada birmənalı şəkildə qəbul olunur ki, Azərbaycan olmayan yerdə Türkiyə, Türkiyə olmayan yerdə isə Azərbaycan var. Biz yuxarıda qardaş ölkənin Azərbaycana hərtərəfli dəstəyindən bəhs etdik. Eyni zamanda, ölkəmiz də həmişə vəfa borcuna sadiq qalır. 2014-cü ilin aprel ayında Praqada dövlət və hökumət başçılarının iştirakı ilə keçirilən "Şərq tərəfdaşlığı" Proqramının 5 illiyinə həsr olunmuş sammitdə baş verənləri xatırlayaq. İş elə gətirib ki, həmin tədbir aprelin 24-nə təsadüf edib. Bu, Ermənistanda saxta "soyqırımı"nın yad edildiyi gündür. Bu ölkənin sabiq dövlət başçısı Serjik Sarkisyan xəstə erməni təxəyyülünün məhsulu olan iddianı növbəti dəfə bəhs olunan Praqa sammitində gündəmə gətirmək istəyib. Belə ki, Ermənistanın sabiq prezidenti zirvə görüşünün plenar iclasında öz çıxışını bütünlüklə qondarma "erməni soyqırımı" ilə bağlı mülahizələrə həsr edib və Türkiyəni əsas tənqid hədəfi kimi seçib. Serjik Sarkisyan bir tərəfdən Türkiyəni qondarma "soyqırımı" ilə bağlı konstruktiv mövqe tutmamaqda, digər tərəfdən isə Ermənistanla sərhədlərini açmamaqda əsassız olaraq ittiham edib və bu ölkənin Avropa İttifaqına üzvlüyünün yolverilməz olduğunu deyib.

Praqada Azərbaycan Prezidentinin nümayiş etdirdiyi qətiyyətli mövqe - sammitə Türkiyə təmsilçisinin qatılmamasından istifadə edərək rəsmi Ankaranın ünvanına hədyanlar səsləndirən, qondarma "soyqırımı" sayıqlamalarını dilə gətirən Serjik Sarkisyana tutarlı cavab verməsi heç vaxt yaddaşlardan silinməyəcək. "Bu gün təəssüf ki, Ermənistan prezidenti burada fürsətdən istifadə edərək Türkiyəyə yenidən hücum edir. Bunu etmək asandır, çünki bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam və Türkiyə-Ermənistan sərhədinin niyə bağlı olduğunu deyə bilərəm", - deyə dövlətimizin başçısı Ermənistan rəsmisi tərəfindən saxta ittihamlara tuş gələn Türkiyənin müdafiəsinə qalxıb. Azərbaycan Prezidenti sammitdəki tarixi çıxışında Ermənistanın riyakarlığını, işğalçılıq siyasətinin əsl mahiyyətini yüksək tribunadan beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Beləliklə, Ermənistanın sabiq dövlət başçısı çıxılmaz durumda qalıb. Onun, sadəcə, deməyə sözü yox idi. Təsadüfi deyildir ki, Prezident İlham Əliyevin sammitdə qardaş ölkəni müdafiə məqsədilə səsləndirdiyi fikirlər Türkiyə ictimaiyyəti tərəfindən düşmən ölkənin rəhbərinin sifətinə vurulan tərs sillə kimi dəyərləndirildi.

### Azərbaycan da hər zaman qardaş ölkənin yanındadır

Qardaş Türkiyə 2016-cı il iyulun 15-dən 16-na keçən gecə dəhşətli terror hadisəsi ilə silkələndi. Baş verənlər dövlət terroruna cəhd idi. Lakin FETÖ və digər satqın qüvvələrlə birləşən imperialist güc mərkəzlərinin qurduqları dövlət terroru planları 15 iyul 2016-cı il tarixində növbəti dəfə iflasa uğradı. Milyonlarla insan dövləti xilas etmək, Prezident R.T.Ərdoğanla həmrəylik nümayiş etdirmək üçün ayağa qalxdı. Bu böyük gücün qarşısında FETÖ, ona himayədarlıq edən qüvvələr dayana bilmədilər və məğlubiyyətə uğradılar.

Təbii ki, həmin gecə Azərbaycan xalqının da ürəyi qardaş Türkiyə ilə döyünürdü. Dövlət çevrilişinə cəhd hadisələri Azərbaycanın siyasi rəhbərliyi, şəxsən Prezident İlham Əliyev tərəfindən birmənalı şəkildə qınanıldı və Türkiyənin qanuni hakimiyyətinə həmrəylik nümayiş etdirildi.

Türkiyədə 2023-cü il fevralın 6-da mərkəzi Kahramanmaraş olmaqla baş verən 7.7 və 7.6 bal gücündəki dağıdıcı zəlzələdə 53 min 537 nəfər həyatını itirib, 107 min 213 nəfər isə müxtəlif bədən xəsarətləri alıb. Zəlzələ nəticəsində 38 min 901 bina dağılıb. 11 vilayət, 124 rayon, 6929 kənd və məhəllə olmaqla 120 min kvadratkilometr əraziyə və 14 milyon insana təsir edən bu zəlzələ insan itkisi və əhatə etdiyi ərazi baxımından dünya üzrə ən dağıdıcı təbii fəlakətlər siyahısına daxil olub. Azərbaycan hər zaman olduğu kimi, zəlzələdən sonra ilk dəqiqələrdən, ilk saatlardan qardaş Türkiyəyə yardıma tələsib və bu yardımını indi də davam etdirir.

Şübhə yoxdur ki, 2021-ci il iyunun 15-də Şuşa Bəyannaməsinin imzalanması ilə müttəfiqlik münasibətlərini rəsmiləşdirən Azərbaycan və Türkiyə gələcəkdə də bir yerdə olacaqlar. Yeri gəlmişkən, telefon söhbəti zamanı 2025-ci ildə iki qardaş ölkə arasında əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Həmçinin dövlət başçıları təmasların davam etdirilməsi məsələsini qeyd ediblər.

***Mübariz ABDULLAYEV***

# Bakı COP29-u möhtəşəm iqlim tədbiri kimi tarixə yazdı

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın COP29 sammitinə layiqli ev sahibliyi etməsi və qlobal zirvə görüşündə bir sıra mühüm beynəlxalq miqyaslı razılaşmaların əldə edilməsinə toxunub. Dövlət başçısı COP29-u ölkəmiz üçün böyük bir çağırış və imkan adlandıraraq qlobal iqlim ailəsi tərəfindən həvalə edilmiş bu vəzifəni uğura çevirməkdən ibarət olduğunu xatırladıb.

Azərbaycan vaxtın az olmasına baxmayaraq 11 ay ərzində yüksək hazırlıq qabiliyyəti ilə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konransının 29-cu sessiyasını hədsiz dərəcədə uğurla və nümunəvi bir formada ev sahibliyi etdi. 196 ölkədən 72 min iştirakçını ölkəmizdə böyük hörmətlə, yüksək qonaqpərvərliklə qarşıladı, COP29 tədbiri ən möhtəşəm COP-lardan biri kimi tarixə düşdü.

### Gözü götürməyənlərin bəd niyyətləri ürəyində qaldı

Tədbir Azərbaycanın bədxahlarının qarayaxma kampaniyası, yəni sessiyanın boykot olunmasına çağırışlar şəraitində reallaşdı. Bir sıra dövlətlər ciddi ekoloji müzakirələrə həssaslıq göstərmək əvəzinə, Azərbaycanın evsahibliyinə qısqanclıq, başqa sözlə ölkəmizə olan hörməti həzm etməməkdən irəli gələn kobud davranış sərgiləyirdilər. Daxildəki müəyyən qüvvələr də xaricdəki qulp qoyanlarla, pozucu qüvvələrlə səs-səsə vermək istəyirdi. Məqsəd bəlli idi, tədbir baş tutmasın, Azərbaycan beynəlxalq aləmdə rüsvay olsun. Bütün bunlar ölkəmizin uğurlarını gözü götürməyənlərin xislətindən irəli gəlirdi.

Əlbəttə, bu cür ucuz kampaniyaların ölkəmizə qarşı heç bir beynəlxalq təsiri və əhəmiyyəti mümkün deyildi. Azərbaycan belə oyunlar, qarayaxma kampaniyaları və eyni tipli hallarla bir neçə illər öncə "Avroviziya" yarışması, Birinci Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər mötəbər tədbirlərə ev sahibliyi etdiyi ərəfələrdə də rastlaşıb. Respublikamız öz nümunəvi və peşəkar təşkilatçılığı, möhkəm intizamı və əsil həmrəylik isteda-



dı ilə bütün beynəlxalq sammit və tədbirləri yüksək səviyyədə keçirərək dünyanın nüfuzlu təşkilatları tərəfindən mükafatlandırılıb. Ona görə də COP29 iqlim sammitinin Azərbaycanın unikal bacarığı və qətiyyətli iradəsi ilə dünya iqlim ailəsinə örnək olacağı şübhə doğurmurdu.

### İqlim ailəsinin həmrəyliyi - Bakı Nailiyyəti

BMT-nin Baş katibi iki dəfə - tədbirin açılışında və bağlanışında səfər etməklə Azərbaycana və COP ailəsinə olan ehtiramını nümayiş etdirdi. Baxmayaraq ki, Avropa Komissiyasının rəhbərliyi Azərbaycana gəlmədi, bu, COP29-un keçirilməsinə xələl gətirmədi. Bu, COP-a üzv olan tərəf kimi Avropa Komissiyası barədə çoxsaylı suallar doğurdu. Əlaxüsus da, bu addım Azərbaycana yox, beynəlxalq iqlim ailəsinə qarşı hörmətsilzik kimi səciyyələndirilə bilər. Azərbaycan COP29-a ev sahibliyini üzərinə götürdüyü ilk gündən başlayaraq özünün "yaşıl enerji" diplomatiyasını yürütməklə geniş həmrəylik platforması yaratdı. Dövlət başçısının vurğuladığı kimi çoxları bunu Bakı Nailiyyəti adlandırırlar. Çünki COP tarixində ən mühüm sazişlər Azərbaycan paytaxtında imzalandı, uzun illər əldə edilməyən razılaşmalar burada həllini tapdı. Təxminən 10 il ərzində COP ailəsi karbon bazarı ilə bağlı razılığa gələ bilmirdi və COP-un ilk günlərində ölkəmizdə mühüm uğur əldə edildi, karbon bazarına dair Paris Sazişinin 6-cı maddəsi üzrə razılaşmaya imza atıldı. Bundan başqa, COP-un əsas mövzularından biri maliyyələşmə ilə bağlı yekun nəticəyə nail olundu. İqlim dəyişiklikləri ilə mübarizədə beynəlxalq koalisiyanın əsas hədəflərindən biri olan iqlim maliyyələşdirilməsi məsələsi də COP29 sammitinə ev sahibliyi edən Azərbaycanın qətiyyəti sayəsində öz həllini tapdı. Azərbaycanın səyi ilə aparılan səmərəli danışıqlar və diplomatik uğurların nəticəsində iqlim maliyyəsi siyasətini koordinasiya edəcək beynəlxalq təsisatın - İtki və Zərərə cavab verən Fondun maliyyə büdcəsinin formalaşdırılması və maliyyələşdirmə səlahiyyətləri təmin edildi.

Azərbaycanın Sədrliyi dövründə şəffaflıq prinsipi mövzusunda həllini tapdı, məhz ölkəmizin iradəsi sayəsində İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondu (İMFF) yaradıldı, "Bakı Qlobal İqlim Şəffaflığı Platforma"sı təsis edilməsi ilə dünya ölkələri üçün yeni qlobal iqlim maliyyəsi hədəfi müəyyənləşdi. Tədbirdə 1 trilyon dollar civarında gözləntilər olsa da, sözsüz ki, bu, qeyri-real rəqəm idi. Ancaq Azərbaycan real olanı etdi, nəzərdə tutulmuş məbləği 3 dəfə artıraraq 100 milyard dollardan 300 milyard dollara çatdırdı. Bu, böyük nailiyyət kimi gələcək üçün bir miras oldu. Həmin Fond artıq öz ritmi ilə fəaliyyətdədir və iqlim maliyyəsində mövcud olan boşluqları aradan qaldırılmasında mühüm rol oynayacaq. Respublikamızın nail olduğu bu qlobal təşəbbüskarlığın nəticəsidir ki, beynəlxalq ekologiya ailəsi COP29-u "maliyyə COP-u" kimi də təqdim etməkdədir.

Ümumilikdə, ölkəmiz tərəfindən dünya iqlim ailəsinə 14 əsas təşəbbüs irəli sürüldü və həmin təşəbbüslərin böyük əksəriyyəti üzrə praktiki işlər icra olundu. Azərbaycan üçün daha bir mühüm amil ölkənin təqdimatı idi.

### Azərbaycanın nümunəvi təqdimatı

Regionda buna bənzər, bu qədər qonağın iştirak etdiyi ikinci belə tədbir keçirilmədiyini nəzərə alsaq, Azərbaycanın təqdimatı da çox uğurla başa çatdı.

Beləliklə, Azərbaycan dünyanı Bakıya toplayaraq nümunəvi və COP tarixinə qızıl hərflərlə yazılan sammiti keçirməyə nail oldu.

***ELBRUS***

# Azərbaycan Prezidentinin müsahibəsi həqiqət və vicdan duyğusuna dəvətdir



Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2025-ci il, yanvarın 7-də yerli telekanallara verdiyi müsahibə kifayət qədər ciddi mesajların qaynağıdır. Hərçənd ölkə başçısının son illər bütün müsahibə və çıxışlarının məzmunu dəyişmir. Sülhə və qarşılıqlı əməkdaşlığa çağırış, dünya nizamının qorunması və prioritetə çevrilməsi amili, Ermənistanın və ona havadarlıq edən ölkələrin işğalçı əməl və niyyətlərinin layiqincə ifşası, Türkiyə-Azərbaycan qardaşlığı, Azərbaycanın iqtisadi artımının dəyərləndirilməsi, COP29-la bağlı ölkəmizin sərgilədiyi uğur hekayəti, Qarabağın bərpası və orada məskunlaşma işlərinin davam etməsi, Qərbi Azərbaycana qayıdış amilinin hüquqi baxımdan əsaslandırılması və gündəlikdə saxlanması. Bütün məsələlərin mahiyyətində dayanan amil həm də nədir? Azərbaycanın dünya arenasında artan nüfuzu! Azərbaycanın öz suverenliyini bərpa etməsi! Azərbaycanın iqtisadi sahədə dayanıqlı inkişafa nail olması! Azərbaycanın müstəqil siyasət yürütməsi! Azərbaycanın öz hüququnun və heysiyyətinin keşiyində ayıq-sayıq dayanması, güzəştsiz milli mövqe sərgiləməsi, özünün daxili işlərinə qarışmağa kimsəyə ixtiyar verməməsi! Bu, həm Azərbaycanın, həm də bütün Türk Dövlətləri Təşkilatının, müsəlman ölkələrinin dünya miqyasında ciddi güc mərkəzinə çevrilməsinin nəticəsidir: "Bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur.

Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax, dediyim İslam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda, bu təşkilat öz coğrafiyasını da genişləndirir. Artıq D-8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq".

Coğrafiya və imkanlarımız amilinə toxunarkən, İlham Əliyev hər şeydən əvvəl vahid mənəvi məkanı nəzərdə tutur. Bütün türklər və müsəlmanlar üçün sabit, monolit, dəyişməz mənəvi Vətən amilini önə çəkir. Bu vətənin ərazisi vahid islam, vahid türk kültürü, dili və mənəviyyatıdır.

İlham Əliyev müsahibəsində növbəti dəfə maskaları yırtır, ikili standartlar yürüdən dövlətləri, təşkilatları öz adı ilə çağırır: ATƏT-in Minsk qrupu, Avropa Komissiyası və onun prezidenti, Fransa prezidenti, Ermənistan rəhbərliyi və onunla həmrəy olan islamofob, azərbaycanofob, irqçi, ksenofob dairələr, xarici ölkələrin nümayəndələri, İkinci Qarabağ müharibəsi zamanı Ermənistana yanacaq daşıyan yük maşınları göndərən əvvəlki İran hökuməti, haqq savaşımız dönəmində düşmən ölkəyə dəstək verən keçmiş Suriya hakimiyyəti, müstəmləkəçilik siyasəti yürüdən dövlətlər və s.

Azərbaycana qarşı separatçı maksimalizmə İlham Əliyev məsələnin təkcə qoyuluşunda deyil, həm də həll üsulunda fərqli davranış nümayiş etdirir: "Ermənistanda gedən silahlanma prosesi əlbəttə ki, Cənubi Qafqaz üçün yeni təhdid amilidir. Mən artıq bunu demişəm, bir daha demək istəyirəm ki, biz, sadəcə olaraq, müşahidəçi kimi buna baxıb heç nə etməyə bilmərik. Mən bunu, eyni zamanda, Ermənistan rəhbərliyinə də dəfələrlə bildirmişdim ki, bu, yeni təhlükə yarada bilər. Eyni zamanda, bu gün sanki Ermənistanın arxasında duran kimi görünən və onları Azərbaycana qarşı yeni provokasiyalara, təxribatlara təhrik edənlər, çox güman ki, axıra qədər onların arxasında durmayacaqlar. Necə ki, 2020-ci ildə və ondan sonrakı dövrdə dura bilməmişlər. Ona görə yox ki, durmaq istəmirlər, sadəcə olaraq, Azərbaycan bu imkanları verməyəcək".

Məsələ ilk növbədə, problemə fəlsəfi-nəzəri baxışın vüsət və dərinliyindədir. Prosesləri tarixiliyindən çağdaşlığına qədər bütün parametrləri ilə bilən və buna görə doğru analizlər yürütməyi bacaran ölkə başçısının Azərbaycanın taleyinin keşiyində ayıq-sayıq dayanmasının göstəricisidir bu əzm.

Prezident İlham Əliyev hər çıxış və müsahibəsində 44 günlük müharibənin və bir gün davam edən antiterror əməliyyatının nəticələrini xatırlatmağa məcbur olur. Düşməni baş verənləri unutmamağa, silkinib ayılmağa, olanlardan dərs götürməyə, növbəti qan tökmək cəhdlərinin qarşısını almağa dəvət edir. Doğrudan da, tarix hər dəfə ona görə təkrar olunur ki, ondan dərs götürülmür. Yaddaş əxlaqa çevrilməyəndə hər şey yenidən başlanmalı olur. Ermənistan hökümətinin şovinist siyasəti bunun bariz nümunəsidir. İlham Əliyev erməni şovinizminin strateji havadarlarına da, onların iki əsrdən artıq müddətdə davam edən milli-siyasi proqramlarının qlobal motivlərini cani dildən icra edən, həm fiziki, həm də mənəvi terroru həyata keçirən rəhbərlərinə də növbəti mesajı ötürməkdən usanmır: "Müstəqil Ermənistan dövləti, əslində, faşist dövlətdir. Çünki əgər bu ölkəyə 30 ilə yaxın faşist ideologiyasının daşıyıcıları rəhbərlik ediblərsə, bu ölkəni onlar elə özləri kimi də formalaşdırıblar.

Belə bir faşist dövlətlə biz qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Ona görə faşizm məhv edilməlidir. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv edəcəyik. Bizim başqa çarəmiz yoxdur".

Cavab da, şərh də şahanədir! Ona görə şahanədir ki, bu cavabda - həm məkr, riyakarlıq və işğalçı siyasətində möhür vurmağı bacaran düşmənin ənənəvi obrazı, həm də ona qarşı müqavimətdə bizim gücümüz görünür! İlham Əliyev heç olmasa bu dəfə tarixdən dərs almağa, olanlardan ibrət götürməyə çağırır...

Qərbi Azərbaycana qayıdış Prezident İlham Əliyevin son müsahibəsində yenə ətraflı şəkildə gündəmə gətirilir. Ölkə başçısı Cümhuriyyət dövründəki tarixi yanlışları təshih etməyə çalışır, İrəvanda bitib-tükənməyən yurd yerlərimizi xatırladır, onların bizə məxsus olan adlarına vurğular edir, indi Ermənistan üçün torpaq olan İrəvan xanlığının, Zəngəzur mahalının qayıdışını ən önəmli məsələ olaraq aktuallandırır: "Bu gün biz deyirik ki, 300 min Qərbi azərbaycanlı o bölgələrə qayıtmalıdır. Amma bütövlükdə o bölgədən çıxmış və bu gün Azərbaycanın müxtəlif bölgələrində yaşayanların və onların nəvələrinin, nəticələrinin sayı 300 mindən bir neçə dəfə çoxdur. Hələ XIX əsr rus imperiyasının xəritələrinə baxın. Orada bütün toponimlərin Azərbaycan mənşəli olması göz önündədir, ya da rus imperiyasının XX əsrin əvvəllərində tərtib edilmiş xəritələri. Orada da bütün şəhərlərin adları Azərbaycan mənşəlidir. Orada siz "Sevan gölü" adlı bir göl görməzsiniz. Orada Göyçə gölü yazılıb. Biz deyəndə ki, bu, bizim tarixi torpağımızdır, biz həqiqəti deyirik".

Ölkə başçısının Ermənistan rəhbərliyini həqiqət və vicdan duyğusuna dəvət etməsinin - "ondan beynəlxalq hüquqa uyğun mövqe" gözləməsinin əsasında da elə bu amil - öz həqiqətimizin mütləqliyinə inam dayanır: "Bu, ciddi problemdir. Bu, yüz minlərlə insanın hüquqlarının bərpası məsələsidir. Bu, insan hüquqları məsələsidir. Bu, ədalət məsələsidir".

Bu gün Azərbaycanın siyasi həyatında mühüm bir mərhələ başlayıb. Bu, yeni tariximizin Qərbi Azərbaycan mərhələsidir. İlham Əliyev yeni tariximizin Qərbi Azərbaycan mərhələsini də uğurla sonlandıracağına ümidlidir. Biz isə əminik! Bu əminliyi bizdə yaradan "Qarabağ Azərbaycandır" həqiqətini bütün dünyaya bəyan etməyi bacaran, Qarabağ adlı əsərin yarımçıq qalmış səhifələrini uğurla tamamlayan ölkə başçısının vüqarıdır! Necə demiş Ziya Paşa: "Ayinesi iştir kişinin..."

**ELNARƏ AKİMOVA,**
**Milli Məclisin deputatı,**
**YAP İdarə Heyətinin üzvü,**
**filologiya elmləri doktoru**

# İrəvanı təşvişə salan MÜSAHİBƏ...

Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına geniş müsahibəsi Ermənistan mətbuatında da geniş işıqlandırılıb. Bu ölkənin KİV-ləri Azərbaycan Prezidentinin fikirlərini, regionun gələcək inkişafı ilə bağlı strateji düşüncələrini, eləcə də qlobal təhlükəsizliklə bağlı düşüncələrini paylaşıb, bu fikirlərə münasibət bildiriblər. "News.am", "Armenpress.am", "Hetq.am", "Panorama.am", "Aysor.am", "Tert.am", "1in.am" (First Armenian News), "Arminfo.info", "Sputnik.am", "Armeniatoday.news" kimi saytlar Azərbaycanın dövlət başçısının fikirlərinə geniş yer ayırıblar. Eyni zamanda, Prezident İlham Əliyevin Cənubi Qafqazın gələcəyi, Ermənistanın silahlanması və bununla da yenidən təhdidə çevrilməsi ilə bağlı fikirlərini şərh ediblər. Xüsusilə, dövlət başçısının yeni siyasi nizamla bağlı fikirləri erməni mətbuatında geniş sensasiya doğurub. Bundan başqa, prezidentin Qərbi Azərbaycan İcması haqda bildirdiyi fikirlər erməni KİV-i tərəfindən auditoriyaya təqdim olunub.



Məsələn, "Aysor.am" yazıb ki, Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanı "region üçün təhlükə mənbəyi" adlandıraraq, onun silahlanmasının "yalnız yeni gərginliyə səbəb olacağını" deyib. Sayt dövlət başçımızın Ermənistandakı faşizmlə bağlı fikirlərini də təqdim edib.

Eyni zamanda, Azərbaycan Prezidentinin Zəngəzur dəhlizi ilə bağlı açıqlamaları da erməni saytlarında geniş müzakirə yaradıb. Xüsusilə, dövlət başçısının qətiyyətlə "Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır" söyləməsi Ermənistan KİV-ində işıqlandırılıb.

Bir sıra saytlar "Əliyev bildirir ki, Bakı Ermənistanla sülh müqaviləsi olmadan yaşaya bilər" başlığı ilə Azərbaycan Prezidentinin fikirlərini dərc edib. Azərbaycanın dövlət başçısının "Ermənistan dərhal silahlanmağı dayandırmalıdır". Fransa və onu silahla təmin edən digər ölkələr bu müqavilələri ləğv etməlidir" açıqlaması da erməni mətbuatında geniş şəikldə işıqlandırılıb.

Qeyd edək ki, dünən gün ərzində Ermənistanın bir sıra tanınmış siyasətçiləri, millət vəkilləri və politoloqları Azərbaycan Prezidentinin fikirlərinə münasibət bildirib. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan isə keçirdiyi brifinqdə Prezident İlham Əliyevin Zəngəzur dəhlizinin açılması ilə bağlı şərhinə toxunub. Erməni nazir deyib ki, biz digər dövlətlər, qonşularımız arasında maneə yox, körpü olmaq istəyirik. Xatırladaq ki, Azərbaycan Prezidenti öz müsahibəsində Ermənistanın "Türkiyə ilə Azərbaycan arasında coğrafi maneə kimi çıxış etməməli" olduğunu bəyan edib.

"Armenpress" saytı isə Prezident İlham Əliyevin müsahibəsi ilə bağlı Ermənistanın baş naziri Nikol Paşinyandan müsahibə alıb. Paşinyan Zəngəzur dəhlizi ilə bağlı təkliflərin irəli sürüldüyünü bildirib.

Ermənistanın elektron mətbuatı ilə yanaşı, qəzetləri də Prezident İlham Əliyevin müsahibəsinə geniş yer ayırıblar. Xüsusilə, Haykakan Zhamanak(armtimes.am), Hraparak(hraparak.am), 168.am kimi qəzetlər Azərbaycanın dövlət başçısının fikirlərini, bəyanatlarını dərc ediblər. Qəzetlər səslənən fikirlər ətrafında bir sıra şərhlər veriblər...

***SADİQ***

# BMT İlham Əliyevin müraciətini rəsmi sənəd kimi yayıb




Birləşmiş Millətlər Təşkilatının (BMT) katibliyi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2024-cü il 5-6 dekabr tarixlərində Bakı şəhərində "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" mövzusunda keçirilmiş ikinci beynəlxalq konfransın iştirakçılarına müraciətini və konfransın yekun sənədini BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının rəsmi sənədləri kimi yayıb.

Bu barədə Qərbi Azərbaycan İcmasından bildirilib.

Qeyd olunub ki, Qərbi azərbaycanlıların öz doğma torpaqlarına geri qayıdışı ilə bağlı məsələni hər zaman diqqətdə saxlayan Azərbaycan Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan mövzusunun beynəlxalq gündəlikdə profilinin artması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Eyni şəkildə, konfransın yekun sənədinin BMT-nin rəsmi sənədi kimi yayılması, Qərbi Azərbaycan İcmasının mötəbər qurum kimi beynəlxalq aləmdə qəbul edilməsi və konfransın nəticələrinin beynəlxalq aləmə çatdırılması baxımından səmərəli addım olub. Bu sənədlərin yayılması, sözügedən illik beynəlxalq konfransın qayıdış hüququ və ümumiyyətlə, beynəlxalq humanitar hüquq sahəsində beynəlxalq aləmdə ən mühüm platformalardan biri kimi qəbul edilməsinə böyük töhfə verir.

Xatırladaq ki, sözügedən sənədlərin yayılması ilə İcmanın təşəbbüsü ilə BMT-nin rəsmi sənədləri kimi yayımlanmış sənədlərin sayı 10-a çatıb.

Qərbi Azərbaycan İcması sülh yolu ilə təhlükəsiz və ləyaqətli şəkildə qayıdış məsələsini beynəlxalq qurumların gündəliyinə təqdim etməkdə davam edəcək. İcma bir daha Ermənistan hökumətini sələflərinin başlatdığı irqi ayrı-seçkilik siyasətindən əl çəkməyə, beynəlxalq hüquq çərçivəsində öhdəliklərini yerinə yetirməyə, Qərbi azərbaycanlıların qayıdışına şərait yaratmağa və bu məqsədlə Qərbi Azərbaycan İcması ilə dialoqa başlamağa çağırır.

# Ən vacib prioritetlərdən biri

Azərbaycanın 2025-ci il üçün dövlət büdcəsində hərbi və təhlükəsizlik məsələlərinə 8,4 milyard manat vəsait ayrılması nəzərdə tutulub. Postmüharibə dövründə respublikamızın işğaldan azad edilmiş ərazilərin bərpası və "Böyük Qayıdış" proqramlarını həyata keçirməsi kontekstində bu, kifayət qədər böyük rəqəmdir. Axı həmin vəsaitlərin bir hissəsini işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işlərinə yönəltməklə bu prosesi daha da sürətləndirmək mümkün olardı. Doğru məntiqdir. Ancaq məğlub Ermənistanın sürətlə silahlanmasını və havadarlarının təhriki ilə yeni müharibə hazırlıqları gördüyünü nəzərə aldıqda Azərbaycanın hərbi və təhlükəsizlik məsələlərinə böyük büdcə ayrılmasının səbəbləri aydın olur.

Bununla belə, respublikamız işğaldan azad edilmiş ərazilərin bərpasını

## İlham Əliyev: Dünya tarixinə nəzər salsaq görərik ki, işğaldan və dağıntıdan əziyyət çəkmiş heç bir ölkə öz ərazilərini bu templə və bu keyfiyyətlə bərpa etməyib

sürətlə davam etdirmək əzmindədir. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bunu bir daha bəyan edib. "Qarabağın və Şərqi Zəngəzurun bərpası bizim üçün hərbi məsələlərlə bərabər ən vacib prioritetlərdən biridir. Bu il ən azı 4 milyard manat ayrılacaq. Amma mən hesab edirəm ki, biz daha çox vəsaiti səfərbər edə bilərik", - deyə dövlətimizin başçısı vurğulayıb

## Daha 20-yə yaxın yaşayış məntəqəsinə köç olacaq

Postmüharibə dövründə yeni strateji mərhələdə respublikamızın qarşısında duran beş milli prioritet müəyyənləşdirib ki, onlardan biri də işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın təmin edilməsidir. Güclü və məsuliyyətli dövlət olan Azərbaycan otuz il ərzində ağır qaçqınlıq və məcburi köçkünlük taleyi yaşamış soydaşlarımızın yurd yerlərinə qayıdışını layiqli şəkildə və qısa müddətdə həyata keçirmək əzmindədir. Prezident İlham Əliyevin 16 noyabr 2022-ci il tarixində imzaladığı müvafiq Sərəncamla "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiqlənib. Bəhs olunan Dövlət Proqramına uyğun olaraq ərazilərin minalardan təmizlənməsi, yeni infrastrukturun qurulması, yaşayış məntəqələrinin, tarixi abidələrin bərpası, istehsal müəssisələrinin yaradılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirilir.

Əlamətdar haldır ki, Prezident İlham Əliyev işğaldan azad olunmuş ərazilərin bərpasını və Böyük Qayıdış Proqramının icrasını şəxsi nəzarətində saxlayır. O, tarixi zəfərlərimizin baş memarı olduğu kimi, bərpa və yeidənqurma işlərinə də böyük həssaslıqla yanaşır, mütəmadi olaraq birinci xanım Mehriban Əliyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərə səfər edərək müxtəlif layihələrin icrası ilə bağlı Özünün dəyərli tövsiyələrini verir. Qeyd edək ki, dövlətimizin başçısı postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərə 100 dəfədən çox səfər edib və hər səfər də yeni açılışlarla, təməlqoyma mərasimləri ilə əlamətdar olub. Artıq tarixə dönən 2024-cü ildə Prezident İlham Əliyev Füzuliyə, Şuşaya, Laçına, Cəbrayıla, Zəngilana, Ağdama, Kəlbəcərə və digər ünvanlara səfərlərə gedib. Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərə 2024-cü ildə ilk səfərini fevralın 26-da Xocalı şəhərinə edib. O, burada rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb, sonra Xocalı şəhərində Xocalı Soyqırımı Memorialının təməlini qoyub, sakinlərlə birlikdə şəhərdə aparılan tikinti işlərinin gedişi ilə tanış olub.

Ötən il dövlətimizin başçısının Xankəndinə səfəri də əlamətdar hadisələrlə yadda qalıb. Sentyabrın 20-də - Dövlət Suverenliyi Günündə Prezident İlham Əliyev Xankəndi şəhərində Qarabağ Universitetinin və bu ali məktəbin tələbə yataqxanasının təmirdən sonra açılış mərasimində iştirak edib, Universitetin müəllim və tələbə heyəti ilə görüşüb.

Ötən il Şuşaya və Xocalıya ilk köçlərin baş tutması son dərəcə mühüm hadisələrdir. Bu iki yaşayış məntəqəsi bizim üçün müstəsna önəm daşıyır. Bütövlükdə, postmüharibə mərhələsində I Böyük Qayıdış Proqramı 10 minədək soydaşımızı əhatə edib. 2026-cı ilədək isə 34 500 ailənin və ya 140 min vətəndaşımızın köçürülməsi nəzərdə tutulub. Hazırda işğaldan azad olunmuş ərazilərdə müxtəlif sahələrdə çalışan işçilər də nəzərə alınmaqla 30 minə yaxın insan yaşayır.

Cari ilin sonunadək daha 20-yə yaxın yaşayış məntəqəsinə keçmiş köçkünlərin qaytarılması təmin ediləcək və beləliklə də məskunlaşdırılan yaşayış məntəqələrinin sayı 30-a çatacaq.

## Məskunlaşdırma proqramının əhatə dairəsi genişlənəcək

Perspektivdə ərazilərin məskunlaşdırılması daha sürətlə həyata keçiriləcək. Məlumdur ki, ötən dövrdə əsas diqqət ərazilərin minalardan təmizlənməsinə və zəruri infrastrukturun qurulmasına yönəldilib. Ən çox vəsait də infrastruktur layihələrinin icrasına sərf olunur. Bildirildiyi kimi, 60 kilometrdən çox tunellər, körpülər, elektrik stansiyaları, su anbarları, dəmir yolları inşa edilir. Artıq 30-dan çox su elektrik stansiyası işə salınıb. Təqribən 2-3 ildən sonra əsas infrastruktur layihələri inşası başa çatacaq və ondan sonra yaşayış fondunun yaradılmasına istiqamətləndiriləcək məbləğ daha böyük olacaq. Görülən işlərdən məmnunluğunu bildirən Prezident İlham Əliyev bildirib ki, əgər biz dünya tarixinə nəzər salsaq görərik ki, işğaldan və dağıntıdan əziyyət çəkmiş heç bir ölkə öz ərazilərini bu templə və bu keyfiyyətlə bərpa etməyib.



Prezident İlham Əliyev müharibə başa çatandan dərhal sonra bəyan etmişdi ki, biz Qarabağı cənnətə çevirəcəyik. Əslində, Qarabağ öz təbii quruluşuna, gözəlliyinə görə onsuz da cənnətdir. Amma böyük səylərlə yaradılan müasir infrastruktur, yaşayış və iş yerləri, rahatlıq bu yerləri doğrudan da dünyanın ən gözəl guşələrindən birinə çevirəcək.

## Qarabağ, Şərqi Zəngəzur və Naxçıvan vahid məkan kimi inkişaf etdiriləcək

Prezident İlham Əliyev müsahibəsində həm tarixilik, həm də müasir çağırışlar nöqteyi-nəzərindən böyük akualıq daşıyan mühüm bir mesaj verib. "Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda, ona o qədər də uzaq olmayan Naxçıvan Muxtar Respublikası iqtisadi, sosial, yaşıl enerji və təhlükəsizlik nöqteyi-nəzərdən vahid bir böyük məkana çevrilməlidir, halbuki bu, bizim bölgüyə görə üç regiondur. Amma, eyni zamanda, bir-birinə tarixən bağlı olan bu bölgələr hazırda vahid konsepsiya əsasında inkişaf edir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Yaxın vaxtlarda Naxçıvan və Ordubad şəhərlərinin Baş planlarının hazırlanmasına start veriləcək. Sonrakı illərdə Naxçıvan Muxtar Respublikasının digər şəhərlərinin Baş planlarının hazırlanmasına başlanacaq. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurdakı bütün yaşayış məntəqələri vahid Baş plan əsasında qurulur. Bildirildiyi kimi, bu, bir nümunə olacaq. Sonra biz bunu ölkəmizin digər bölgələrinə də tətbiq edəcəyik.

*Mübariz FEYİZLİ*

# Öz fikirlərimiz, öz gündəliyimiz var...

## D-8 üzvlüyümüz ölkəmizin mühüm uğurlarındandır

Özünün xarici siyasət kursunda əməkdaşlıq, tərəfdaşlıq və təhlükəsizlik amillərini ön plana çıxaran Azərbaycan müasir çağırışlara adekvat cavab verməkdədir. Yeni iqtisadi münasibətlər sisteminin formalaşdığı hazırkı dövrdə ölkəmiz bir sıra parametrlər üzrə qlobal dünyanın diqqətini cəlb edir. Xüsusilə, beynəlxalq aləmdəki real və praqmatik rolu, qlobal təşəbbüskarlığı, iqtisadi inkişaf dinamikasını sürətləndirməsi, qısa zamanda mühüm sosial-iqtisadi yol qət etməsi, bununla paralel olaraq ərazi bütövlüyünün və suverenliyimizin bərpa olunması Azərbaycan üçün mühüm üstünlüklər yaradır. Prezident İlham Əliyevin yürütdüyü siyasət əməkdaşlığa, qarşılıqlı milli maraqların qorunmasına əsaslandığı üçün dünyanın aparıcı dövlətləri, beynəlxalq təşkilatlar Azərbaycana etimad göstərir, ölkəmizi öz sıralarında görməkdən məmnunluq duyduğunu dilə gətirirlər. Təsadüfi deyil ki, ötən ilin sonunda ölkəmizin D-8 təşkilatına üzv qəbul edilməsi də məhz növbəti diplomatik qələbəmiz sayılır.

## Bu, birinci addımdır

Yerli televiziya kanallarına müsahibəsində Azərbaycanın D-8 təşkilatına üzvlüyü məsələsinə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, bu təşkilat müsəlman ölkələrini birləşdirən ən böyük təşkilatdır: "Bir milyarddan çox əhalisi olan və müsəlman ölkələrinin iqtisadiyyatının 60 faizini təşkil edən bir təşkilatdır. Əgər biz bu təşkilatın ümumi daxili məhsulunu götürsək, bu, 5 trilyon dollardan çoxdur. Dünyada 60-a yaxın müsəlman ölkəsi var və məhz Azərbaycan yeni üzv seçilmişdir. Əlbəttə ki, bu, bizim üçün həm böyük şərəfdir, həm də böyük məsuliyyətdir. Artıq bütün göstərişlər verilib ki, Azərbaycan bu təşkilatda fəal olsun və öz töhfəsini verə bilsin".

Bəli, üç qitəni əhatə edən D-8-ə üzvlüyümüz Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Vurğulanmalıdır ki, Azərbaycanın ortaya qoyduğu gələcək hədəflər, prioritetlər D-8-in ümumi inkişaf strategiyası ilə üst-üstə düşür. D-8-in hədəflərinin əks olunduğu "2020-2030 illər yol xəritəsi" təşkilatın güclənməsini və inkişafını hədəfləyir. Yol xəritəsi çərçivəsində üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin inkişafı, təhlükəsizlik, sabitlik və rifahın artırılması kimi məqsədlər müəyyən edilib. Azərbaycan da hər zaman yüsək əməkdaşlıq platformasında maraqlıdır. D-8 qrupuna üzvlüyümüz qarşılıqlı şəkildə həm siyasi, həm də iqtisadi əhəmiyyət daşımaqdadır. Yeni siyasi-iqtisadi nizamda özünəməxsus rol oynayacaq dövlətlərin gələcək iqtisadi inkişaf perspektivləri olduqca böyükdür. İqtisadi inkişaf isə özlüyündə siyasi təmərküzləşməni də əhatə edir. Bu mənada, inkişaf etməkdə olan müsəlman ölkələrinin beynəlxalq arenada kollektiv şəkildə çıxış etməsi qlobal məsələlərdə daha təsirli rol oynaya bilər. Prezident İlham Əliyev bildirib ki, biz üzv ölkələrlə daha sıx təmasda olacağıq: "Halbuki bu günə qədər də bütün üzv ölkələrlə bizim çox fəal münasibətlərimiz var. Biz bu qərarı yenə də uğurlarımızın qəbul olunması hesab edirik və yenə də deyirəm, bu, sadəcə olaraq, birinci addımdır. Əsas məsələ D-8-in gələcək fəaliyyəti ilə bağlı olacaq. Əlbəttə ki, bizim öz fikirlərimiz, öz gündəliyimiz var".

Bu isə öz növbəsində üzv ölkələr arasında həmrəyliyi artırmağa və onların qlobal siyasətdə daha güclü bir mövqe əldə etmələrinə imkan yaradır. Sirr deyil ki, qarşıdakı mərhələdə dünyanın əsas diqqəti məhz yeni siyasi-iqtisadi aktorların yer alacağı regionlara yönələcək. Azərbaycanın son illərdə Cənubi Qafqazda formalaşdırdığı yeni siyasi situasiya və bu siyasi situasiyaya əsaslanan yeni qlobal iqtisadi layihələr olduqca vacib amilə çevrilir. Azərbaycanın D8-ə üzv kimi qəbul edilməsi bu reallıqların dünya ictimaiyyəti, eyni zamanda, müsəlman dünyası tərəfindən açıq şəkildə dərk olunduğunu göstərir.

## Namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə oldu...

Yeri gəlmişkən, bu təşkilat məhz Türkiyənin təşəbbüsü ilə yaradılıb. Təşkilatın təməli 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında qoyulub. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. O zamandan bəri, təşkilatın liderləri mütəmadi olaraq zirvə görüşləri təşkil edərək, iqtisadi əməkdaşlıq və inkişaf məsələlərini müzakirə edirlər. Son Zirvə Konfransı 19 dekabr 2024-cü ildə Misirdə keçirilib. Bu toplantıda, üzv ölkələr arasında ticarətin artırılması, texnologiya transferi və enerji sahəsində əməkdaşlığın gücləndirilməsi kimi mövzular ön planda olub. Təşkilatın gələcək planları arasında, üzv ölkələrin iqtisadi inteqrasiyasının dərinləşdirilməsi və qlobal iqtisadi sistemdə daha güclü bir mövqe əldə etmək üçün birgə strategiyaların inkişaf etdirilməsi kimi məsələlər yer alır. Dövlət başçımız bildirib ki, bizim namizədliyimizi ilk gündən dəstəkləyən Türkiyə olmuşdur: "Prezident Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə mən hətta bir dəfə Türkiyədə keçirilmiş D-8 Zirvə görüşündə də qonaq qismində iştirak etmişdim, təqribən 7-8 il bundan əvvəl. Artıq o vaxtdan bəri Azərbaycanın üzvlüyü ilə bağlı məsələ gündəliyə salınmışdı. Amma təbii ki, bütün üzv ölkələr arasında konsensus olmalıydı və nəhayət, bu konsensus əldə edildi".




## Birinci seçim Azərbaycan oldu...

D-8-ə üzvlük və İslam Əməkdaşlıq Təşkilatındakı fəal fəaliyyət ölkəmizin xarici siyasətində bir-birini tamamlayan elementlər kimi çıxış edir. D-8 üzvlüyümüz bir daha sübut edib ki, Azərbaycan hazırda sürətlə inkişaf edən, davamlı ictimai-siyasi sabitliyə malik, yüksək iqtisadi göstəricilərə nail olan və dünya ictimaiyyətinin rəğbətini qazanan dövlətlərdəndir. Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasəti bütün İslam dünyasında təqdir olunur. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının tədbirlərində iştirak edir, hətta ərəb dünyasında da xüsusi hörmətlə qarşılanır. Təsadüfi deyil ki, dövlət başçımız 2022-ci ilin noyabrında Əlcəzairdə keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısına fəxri qonaq statusunda qatılmışdı. Həmin tədbirdə də dövlətimizin başçısı bildirmişdi ki, Azərbaycan Ərəb Dövlətləri Liqasına üzv ölkələrlə ikitərəfli əməkdaşlığa, qarşılıqlı dəstək və həmrəyliyə xüsusi önəm verir.

Paralel olaraq Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində dünyada sülhün və təhlükəsizliyin təmininə öz töhfəsini verib. Bu xidmətimiz hər zaman yüksək səviyyədə dəyərləndirilir. D-8-ə qoşulmamız ilk növbədə ölkəmizin multilateralizm siyasətinə sadiqliyini bir daha nümayiş etdirir. Beləliklə, bir həqiqət növbəti dəfə təsdiqlənir - Azərbaycanın məyyənləşdirdiyi siyasi hədəflər yalnız Cənubi Qafqaz sərhədləri ilə məhdudlaşmır, daha geniş geocoğrafi anlam daşıyır. Bu, Azərbaycanın təşkilat çərçivəsində həm çoxtərəfli, həm də ikitərəfli formatda əlaqələrinin inkişafına təkan verəcək. Dövlət başçımız bildirib ki, bütün müsəlman ölkələrinin maraqlarını biz öz maraqlarımız kimi qəbul edirik, bəlkə də o cümlədən buna görə D-8-in genişlənməsi siyasətindən sonra birinci seçim Azərbaycan olmuşdur: "Əlbəttə, burada ölkəmizin həm iqtisadi potensialı, siyasi çəkisi, hərbi gücü nəzərə alınıbdır. Bax, dediyim İslam həmrəyliyi ilə bağlı siyasətimiz nəzərə alınıbdır və eyni zamanda, bu təşkilat öz coğrafiyasını da genişləndirir. Artıq D-8 həm Qafqaz, həm də Xəzər regionuna genişlənib və coğrafiyamız nə qədər geniş olsa, imkanlarımız da o qədər geniş olacaq".

*P.İSMAYILOV*

# “Daim irəliyə baxmalıyıq!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Abşeron rayonu, Hökməli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Abşeron rayon təşkilatının sədri Abbas Əliyev bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə milli məqsədlərin reallaşdırılması istiqamətində atılan addımlar nəticəsində ölkəmiz mühüm nailiyyətlər qazanıb. O qeyd edib ki, ölkədə bütün sahələri əhatə edən islahatlar ardıcıl olaraq davam etdirilir: “Dövlət idarəçiliyinin səmərəliliyi və vətəndaş məmnunluğu artıb, Azərbaycan dünyada müstəqil siyasət yürüdən, özünəməxsus inkişaf yolu olan islahatçı ölkə imici qazanıb. Bu gün işğaldan azad edilmiş ərazilərdə nəhəng quruculuq işləri aparılır. Heç şübhəsiz, yeni hədəflərin reallaşdırılması yeni uğurlara yol açacaqdır. Ona görə də daim irəliyə baxmalıyıq”.





Bələdiyyə üzvlüyünə namizədlər Ramil Orucov, Zamin Buğumov və Mirteyyub Mirhadıyev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib, bələdiyyə üzvlərinin ölkəmizin ictimai-siyasi həyatında önəmindən bəhs edib və seçiciləri partiyanın namizədlərinə səs verməyə çağırıblar.

# Tərəqqi yolunda əmin addımlarla irəliləyirik!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Saatlı rayonu, Nərimanov bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Saatlı rayon təşkilatının sədri Elşən Əzizov qeyd edib ki, dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycan zəngin və şərəfli inkişaf yolu keçib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb: “Bu gün Zəfər yolunda əmin addımlarla irəliləyirik”.

Bələdiyyə seçkilərinin əhəmiyyətini diqqətə çatdıran E.Əzizov partiyanın seçki proqramı haqqında ətraflı məlumat verib.





Seçki qərargahının üzvü Nəsir Ağayev, bələdiyyə üzvlüyünə namizədlər Mirnamiq Ağayev və Nicat Babayev Yeni Azərbaycan Partiyasının bu zamana qədər Azərbaycanın inkişafında müstəsna rol oynadığını, bundan sonra da ölkəmizin tərəqqisi naminə reallaşdırılacaq siyasətə öz töhfələrini verəcəyini bildiriblər. Onlar uğurlarımızın davamı naminə seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# Azərbaycan demokratik dəyərlərə sadiqdir



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində İsmayıllı rayonu, İvanovka bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP İsmayıllı rayon təşkilatının sədri Zaur Muradov Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın böyük uğurlar qazandığını deyib. Vurğulanıb ki, ərazi bütövlüyü və suverenliyini tam bərpa edən ölkəmiz regionda yeni reallıqlar yaradıb.

Azərbaycanın demokratik dəyərlərə sadiq olduğunu bildirən Z.Muradov ölkəmizdə keçiriləcək növbəti bələdiyyə seçkilərinin mühüm ictimai-siyasi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.





Seçki qərargahının üzvü Əfqan Soltanov, bələdiyyə üzvlüyünə namizədlər Oleq Radayev, Maqsud Hüseynov, Məhəmməd Veysəlov və Əlişir Balaliyev seçiciləri ölkəmizdə gedən bütün proseslərin mərkəzində dayanan və xalqın partiyası olan YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

# “Ağstafalıların seçimi Yeni Azərbaycan Partiyasının namizədləridir!”



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Ağstafa rayonu, Aşağı Kəsəmən bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Ağstafa rayon təşkilatının sədri Etibar Hacıyev Yeni Azərbaycan Partiyasının hər zaman bütün seçkilərə yüksək səviyyədə hazırlaşdığını vurğulayaraq partiyanın bu dəfə də inamlı qələbə qazanacağına əminliyini ifadə edib.

Təşviqat qrupunun üzvü İmran Nəsibov, bələdiyyə üzvlüyünə namizədlər Şirin Namazov və Əfqan Məmmədov YAP-ın seçki proqramı haqqında ətraflı məlumat veriblər.





Çıxış edən seçicilər Fatma Orucova, Xəlil Səfərov və digərləri daha qüdrətli Azərbaycan naminə Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini, bələdiyyə seçkilərində fəal iştirak edəcəklərini və partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər. “Ağstafalıların seçimi Yeni Azərbaycan Partiyasının namizədləridir!”, - deyə vurğulanıb.

# YAP xalqa layiqli xidmət nümunəsi yaradıb



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Beyləqan rayonu, Beyləqan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.





YAP Beyləqan rayon təşkilatının sədri Müşfiq Səfərov Yeni Azərbaycan Partiyasının şərəfli yol keçərək ümumxalq partiyasına çevrildiyini diqqətə çatdırıb. O qeyd edib ki, YAP Azərbaycanın inkişafına, dövlət müstəqilliyimizin möhkəmlənməsinə, ölkəmizin nüfuzunun artmasına misilsiz töhfələr verib, xalqa layiqli xidmət nümunəsi yaradıb: “Bütün bu reallıqların nəticəsidir ki, xalqımız Yeni Azərbaycan Partiyasını dəstəkləyir. Bələdiyyə seçkilərinin nəticələri bu gerçəkliyin daha bir bariz nümunəsi olacaq”.

Seçki qərargahının üzvləri Etibar İmanov, Niyaməddin Əsgərov, Şəmistan İbrahimov, bələdiyyə üzvlüyünə namizədlər Novruz Quliyev, Ayaz Quliyev, Bakir Həsənov və Aygün Müslümzadə yerli özünüidarəetmənin təkmilləşdirilməsi baxımından bələdiyyə seçkilərinin önəmindən bəhs ediblər. Onlar Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Azərbaycanın zirvələr fəth etdiyini vurğulayaraq seçiciləri YAP-ın namizədlərinə səs verməyə çağırıblar.

Seçicilər Nazim Çıraqov, Hümbət Pəsiyev və digərləri çıxış edərək Yeni Azərbaycan Partiyasına dəstəklərini ifadə ediblər.

# Yeni nailiyyətlər üçün Yeni Azərbaycan Partiyası!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Daşkəsən rayonu, Daşkəsən və Quşçu bələdiyyələri üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçiyev YAP-ın seçki proqramı haqqında ətraflı məlumat verib. O bildirib ki, ölkəmizin hər bir uğurunda YAP-ın müstəsna rolu var. “Dövlətimiz genişmiqyaslı islahatlar aparır. Bu islahatların nəticələri gündəlik həyatda, ölkənin iqtisadi göstəricilərində, sosial sahədə əldə edilmiş nailiyyətlərdə əksini tapır”, - deyə o vurğulayıb.

Seçki qərargahının üzvü Cavanşir Qocayev, bələdiyyə üzvlüyünə namizədlər Oqtay Yusifov, Elçin Ələsgərli, Alidə Mustafayeva, Cavid Mehralıyev və Habil Süleymanov YAP-ın bələdiyyə seçkilərində növbəti qələbə qazanmaq əzmində olduğunu vurğulayaraq seçiciləri partiyanın namizədinə səs verməyə çağırıblar.





Seçicilər - şəhid anası Qızbəs Abbasova, Rəşad Qurbanov və Eltun Mayılov Yeni Azərbaycan Partiyasını dəstəklədiklərini, xalqımızın mənafeyi naminə partiyanın namizədlərinə səs verəcəklərini bildiriblər.

# "YAP qalib ölkəmizin lider partiyasıdır!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Qazax rayonu, Aslanbəyli bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Qazax rayon təşkilatının sədri Anar Nəbiyev ölkəmizdəki sabitlik və təhlükəsizlik mühitinin əhəmiyyətini vurğulayaraq bu amilin milli tərəqqidə mühüm rol oynadığını diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin xalqımız üçün yeni perspektivlər yaratdığını vurğulayıb.

Yeni Azərbaycan Partiyasının milli maraqlara əsaslanan fəaliyyətindən ətraflı bəhs edən A.Nəbiyev "YAP qalib ölkəmizin lider partiyasıdır. İnanırıq ki, xalqımız digər seçkilərdə olduğu kimi, bələdiyyə seçkilərində də Ulu Öndərimizin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasına qətiyyətli dəstəyini ifadə edəcək", - deyə vurğulayıb.

Seçki qərargahının üzvləri Bəsdi Ələkbərova, Qədir Əfəndiyev, Ceyhunə Hüseynova, Vaqif Nəsibov, Polad Ağakişiyev və Cavanşir Rüstəm,





bələdiyyə üzvlüyünə namizədlər Osman Mustafayev, Müşfiq Abdullayev, Oqtay Pirməmmədov YAP-ın seçki proqramı ilə əlaqədar məlumat veriblər. Bələdiyyələrin fəaliyyətinin daha da gücləndirilməsi məqsədilə qarşıda mühüm vəzifələrin durduğu diqqətə çatdırılıb.

Seçicilər Rəhim Aqqıraxov, Novruz Mehdiyev, Fikrət Qocayev, Zalxa Vəliyeva və digərləri çıxış edərək Yeni Azərbaycan Partiyasının öz əməli fəaliyyəti ilə xalqın böyük rəğbətini qazandığını və bələdiyyə seçkilərində partiyanın namizədlərinə səs verəcəklərini vurğulayıblar.

# Müasir Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Şirvan şəhəri, Şirvan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Şirvan şəhər təşkilatının sədri Zahir Qəhrəmanov ölkəmizin həyatında baş verən mühüm ictimai-siyasi proseslər və partiyanın qazandığı uğurlardan bəhs edib. "Müasir Azərbaycan Heydər Əliyev ideyalarının təntənəsidir", - deyən Z.Qəhrəmanov əlavə edib ki, bu gün Ulu Öndər Heydər Əliyevin siyasi varisi, dövlət başçısı, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə qalib xalqın nümayəndələri kimi möhtəşəm uğurlara şahidlik edir və gələcəyə doğru inamla addımlayırıq.

Bələdiyyə üzvlüyünə namizədlər Sərraf Əzimov, Sevinc Alışova, İlham Səfərov, Teymur





Məmmədov, İradə Atayeva, Aytac Əliyeva, Emin Azadov və Akif Saqiyev yerli özünüidarəetmənin təkmilləşdirilməsi istiqamətində görülən işlər və bu sahədə başlıca hədəflərdən bəhs ediblər. Diqqətə çatdırılıb ki, əsas məqsəd əhaliyə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi və vətəndaş məmnunluğunun artırılmasıdır. Onlar bələdiyyə seçkilərinin əhəmiyyətini vurğulayaraq hər bir vətəndaşı seçkilərdə aktiv iştirak etməyə çağırıblar.

# Rifah və inkişafa səs verək!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Mingəçevir şəhəri, Mingəçevir bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Mingəçevir şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev Azərbaycanın hüquqi, dünyəvi və demokratik dövlət kimi inamla inkişaf etdiyini, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə çox mühüm nailiyyətlərə imza atdığını və Zəfər zirvəsinə yüksəldiyini vurğulayıb.

O, Ulu Öndərin "Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır" fikrinin partiyanın uğurlarını və hədəflərini özündə əks etdirdiyini deyib. "YAP xalqın dəstəyi ilə növbəti seçkilərə də qələbə əzmi ilə qatılır", - deyə B.Mustafayev vurğulanıb.

Seçki qərargahının üzvləri Allahverdi Alıyev, Pərviz Məmmədov, bələdiyyə üzvlüyünə namizədlər Fikrət Zeynalov, Anar İsmayılov, Ədalət Quliyeva, Nargilə Kərimova, Mahnur Ömərova, Gülnarə Dadaşova, Gültəkin Nəzərova və Vüsal Alşanov ölkəmizdə davamlı olaraq həyata keçirilən islahatların bələdiyyə institutunun da inkişafına müsbət təsir göstərdiyini vurğulayıblar. Diqqətə çatdırılıb ki, xalqın iradəsi əsasında yeni formalaşacaq bələdiyyələrdə təmsil olunmaq hüququ qazanacaq YAP üzvləri öz fəaliyyətlərini yeni hədəflər istiqamətində quracaqlar. "Yeni Azərbaycan Partiyasını dəstəkləməklə növbəti dəfə rifah və inkişafa səs verək", - deyə seçicilərə çağırış edilib.





# Partiyamızın şərəfli tarixinə daha bir uğur səhifəsi yazılacaq!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Biləsuvar rayonu, Amankənd bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Biləsuvar rayon təşkilatının sədri Kamil Qurbanlı Azərbaycan xalqının Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiq olduğunu və Prezident İlham Əliyevin siyasətini ürəkdən dəstəklədiyini bildirib. O, indiyədək tarixi uğurlara imza atan Yeni Azərbaycan Partiyasının bələdiyyə seçkilərində də mühüm qələbə qazanacağına inamını ifadə edib. "Partiyamızın şərəfli tarixinə daha bir uğur səhifəsi yazılacaq", - deyə vurğulanıb.





Bələdiyyə üzvlüyünə namizədlər Qədir Abasov, Fariz Əliyev və Rasim Əmirov YAP-ın seçki proqramı haqqında məlumat verib, seçiciləri bələdiyyə seçkilərində fəal iştirak etməyə çağırıblar.

Seçicilər Ədalət Zeynalov, Elsəvər Nəciyev və digərləri seçkilərdə fəallıq göstərərək Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləyəcəklərini bildiriblər.

# Dünənin, bu günün və gələcəyin partiyası növbəti qələbə əzmindədir!



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Suraxanı rayonu, Əmircan bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Suraxanı rayon təşkilatının sədr müavini Salman Əbdülov qeyd edib ki, Yeni Azərbaycan Partiyasının bütün sınaqlardan şərəflə çıxaraq cəmiyyətin avanqard ictimai-siyasi qüvvəsinə çevrilib: "Prezident İlham Əliyevin qeyd etdiyi kimi, partiyamız bundan sonra da ölkəmizdə gedən bütün proseslərin mərkəzində olacaq. Xalqın YAP-a inamı, güvəni sonsuzdur".

S.Əbdülov bələdiyyə seçkilərinin əhəmiyyətinə diqqəti cəlb edərək Yeni Azərbaycan Partiyasının seçki proqramı haqqında





ətraflı məlumat verib. "Dünənin, bu günün və gələcəyin partiyası yeni qələbə əzmindədir", - deyə vurğulanıb.

Bələdiyyə üzvlüyünə namizədlər Cəmilə Ağayeva, Vasif Orucov, Anar Tağıyev və Aysel Şərifova çıxış edərək yeni formalaşacaq bələdiyyədə təmsil olunmaq hüququ qazanacaqları təqdirdə bu etimadı doğrultmağa çalışacaqlarını bildiriblər.

# "Yeni zəfərlər qazanacağıq!"



Azərbaycan Respublikasında 2025-ci il yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinin təşviqat mərhələsi çərçivəsində Babək rayonu, Nehrəm bələdiyyəsi üzrə Yeni Azərbaycan Partiyasının (YAP) namizədlərinin seçicilərlə görüşü keçirilib.

YAP Babək rayon təşkilatının sədri İsa Məmmədov qeyd edib ki, bütün sahələri əhatə edən çoxşaxəli islahatlar Azərbaycanın tərəqqisini və qarşıda duran bir çox milli hədəflərin reallaşmasını mümkün etmişdir: "Ötən müddət ərzində yerli özünüidarəetmə orqanlarının inkişafı istiqamətində də mühüm tədbirlər həyata keçirilmişdir. Bununla belə, yeni çağırışlardan irəli gələn önəmli vəzifələrin yerinə yetirilməsi gərəkdir. Yeni Azərbaycan Partiyası bu sahədə məqsədyönlü fəaliyyət həyata keçirmək əzmindədir".

Seçki qərargahının üzvü Elvin Əliyev, bələdiyyə üzvlüyünə namizədlər Tofiq Abutalıbov, Cəlal Həsənov, Nağı Nağıyev, Vəli Vəliyev, Fərəc Babayev və Zahir Əhmədalıyev yerli özünüidarəetmə orqanlarının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qarşı duran hədəflərin gerçəkləşdirilməsi naminə seçiciləri Yeni Azərbaycan Partiyasının namizədlərini dəstəkləməyə çağırıblar. "Yeni Azərbaycan Partiyası yeni qələbələrə müvəffəq olmaq gücündədir!", - deyə vurğulanıb.





Seçicilər İsmayıl Qurbanov, Səriyyə Məhərrəmova, Məhərrəm Eyvazov və Ədalət İbrahimov YAP-ın namizədlərinə səs verəcəklərini bildiriblər.

# ABŞ-ın iqtisadi siyasətində radikal dəyişikliklər

## Trampın iqtisadiyyatda fövqəladə vəziyyət elan edəcəyi gözlənilir

ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp müttəfiqləri və rəqibləri üçün ümumi rüsumlara hüquqi əsas yaratmaq məqsədilə ölkə iqtisadiyyatında fövqəladə vəziyyət elan etmək imkanını nəzərdən keçirir. ABŞ-ın media strukturlarının yaydığı məlumatlara görə, Tramp “Beynəlxalq iqtisadiyyatda müstəsna səlahiyyətlər haqqında Qanun”a istinad edərək yeni iqtisadi çərçivə formalaşdırmağı və tarif proqramı tərtib etməyi düşünür.

Qeyd edək ki, iqtisadiyyatda fövqəladə vəziyyət elan edilməsi ölkədəki mövcud maliyyə-iqtisadi siyasətdən imtina etmək, qarşıya qoyulmuş yeni vəzifələri yerinə yetirmək üçün radikal qərarlara əsaslanan inqilabi reformalar mənası daşıyır. Bu, eyni zamanda, biznes və investisiya sektorlarında amnistiya xarakterli dəyişikliklər kimi də qəbul edilir.

### Vergilərin azaldılması, investorların iqtisadiyyatda rolunun artırılması

Yeni iqtisadi siyasət çərçivəsində valyuta sabitliyinin dayanıqlılığının təmin edilməsi, sərmayə qoyuluşu və kapital bazarlarının dirçəldilməsi, vergi-gömrük dərəcələrinin yeni əmsallarının müəyyənləşməsi, biznesə vergi stimullarının artırılması, xarici idxalın məhdudlaşdırılması üçün sərt idxal rejimlərinin yaradılması, digər radikal qərarların verilməsi istisna deyil. Bir sözlə, Tramp post-fövqəladə iqtisadiyyat dövrü üçün əsaslı iqtisadi-institusional addımlar atmağı planlaşdırır.

Xatırladaq ki, D.Tramp dövlət kürsüsündə fəaliyyətə başlamasa da, ötən ilin sonlarında Amerikanın iqtisadi hədəfləri haqqında açıqladığı anonslarda bir sıra fundamental iqtisadi-hüquqi, institusional islahatlar aparacağını elan edib. İqtisadi siyasətdə investorların və iri səhmdarların daha münbit və aşağı vergi mühitində fəaliyyətinin təmin olunması ön planda dayanır. Hələ seçki öncəsi Tramp iri korporasiyalar üçün vergilərin azaldılmasının, dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılmasının və ümumilikdə hökumətin azad iqtisadiyyatda tənzimlənmədə rolunun zəiflədilməsinin vacibliyini bəyan edib. Bu iqtisadi siyasət iri korporasiyaların iqtisadi üstün mövqeyinə yol açsa da, məqsəd ölkədə geniş məşğulluq və iş yerlərinin yaradılmasına xidmət edir. Çünki Bayden hakimiyyəti dövründə ABŞ-da işsizlik səviyyəsi kəskin artıb, ölkədə sosial rifah aşağı düşüb. İşsizlik üzrə proqnoz 2024-cü ildə 4 faizdən 4,8 faizə yüksəldilib.

### Sərt idxal rejimi və yüksək rüsumların tətbiqi

Amerikanın yeni hökumətinin iqtisadi proqramında daxili bazarın qorunması ən başlıca prioritetlərdən biridir. Bu məqsədlə idxalın məhdudlaşdırılmasına yönəlmiş kurs əsas xəttə çevriləcək. Hazırda ABŞ-nin illik idxalı 3,2 trilyon dollar təşkil edir, Vaşinqtonun yeni rəhbərliyi bu rəqəmin hədsiz böyük olduğunu və tədiyyə balansına ağır təzyiq göstərdiyini gizlətmir. Eyni zamanda, milli kapitalizmin bazar payına təsir göstərir. Bu baxımdan milli iqtisadiyyatın stimullaşdırılmasına, daxili bazarın xarici rəqabətdən qorunmasına yönəldilmiş dövlət siyasəti gücləndiriləcək, xarici mallara yüksək gömrük tarifləri, bir sıra xarici malların idxalına məhdudiyyətlər və ya qadağalar qoyulacaq, valyuta məhdudiyyətləri, qeyri-tarif maneələri tətbiq ediləcək. İlk növbədə, xarici ticarət iştirakçılarının ölkə bazarında hüdudsuz mövqeyi daralacaq və milli istehsalçıların və investorların təşviqinə imkan yaradılacaq və bu istiqamətdə yeni ticarət rejimi tətbiq olunacaq. İlkin ssenarilərə görə, ABŞ-ın ticari partnyorlarından idxala əlavə 10 faiz gömrük rüsumunun tətbiqi gözlənilir. Amerikanın yeni hökumət komandasının dünyanın iqtisadi nəhənglərindən biri olan Çin mallarına isə 60 faiz rüsum tətbiq edəcəyi fərz olunur. Həmçinin rəsmi Vaşinqton qitədə qonşuları ilə də sərt ticarət rejimlərinin aparılacağını nəzərdən keçirir, Kanada və Meksikadan idxal olunan mallara 25 faiz rüsum dərəcəsi ilə yeni idxal nomenklaturasına cəlb ediləcəyi gözlənilir. Həmçinin, bu sıraya milli sənayenin və yaxud kənd təsərrüfatının idxalına yardımı, daxili ticarətdə lisenziya sistemin istifadə edilməsinin təmin edilməsini, idxal vergilərinin təyin edilməsini də aid etmək olar. Bir sözlə, ABŞ-ın yeni iqtisadi prioritetlərində proteksionizmin geniş təşviqinin əlamətləri sezilməkdədir.

Bundan başqa, qiymətli kağızlar və səhm bazarının iştirakçıları üçün münbit şərait yaradılması nəzərdə tutulur ki, bu da ABŞ-da kriptovalyuta bazarının daha da böyüməsi, rəqəmsal valyutanın, o cümlədən “Bitcoin”in bahalaşmasını sürətləndirə bilər.



### Pul və uçot siyasətində əks addımlar

D.Trampın iqtisadi proqramında pul siyasətində kəskin dəyişikliklər də gözlənilir. Belə ki, 2024-cü ilin ortalarından başlayaraq aşağı uçot dərəcəsi dəhlizinin əks istiqamətdə dəyişdirilməsi istisna olunmur. Qeyd edək ki, Bayden hökuməti uçot dərəcəsini ötən il 2 dəfə azaldaraq 4,5 faiz dərəcəsinə endirib. ABŞ FED-nin bu addımı atmaqda əsas məqsədi aşağı inflyasiya mühitində iqtisadiyyatda müşahidə edilən geriləməni aradan qaldırmaq və maliyyə-bank sistemini daha aşağı uçot dəhlizi çərçivəsində iqtisadiyyata böyük pul axınlarını, investisiyaları təmin etməkdən ibarət olub. Ancaq Tramp xarici pul axınlarından daha çox, yerli investorların kapitalına üstünlük verdiyindən uçot siyasətində korrektələr mümkündür.

ABŞ prezidentinin radikal iqtisadi siyasətinin xarici tərəfdaş ölkələrə və dünya iqtisadiyyatına təsirləri də istisna deyil. Qlobal investorların və tədarükçülərin Amerika bazarlarından sıxışdırılması ehtimal edilən bu siyasətin gerçəkləşməsi dünyada iqtisadi inkişafın zəifləməsinə və qlobal ÜDM-in azalmasına səbəb ola bilər.

*ELBRUS*

# Mücərrəd sevginin konkret ünvanı

## Migel de Unamunonun “Duman” romanı haqqında

*əvvəli ötən saylarımızda*

Auqusto Euxeniyanın ata mülkünü girovluqdan çıxarandan sonra qız onun hədiyyəsini, daha doğrusu, qurbanını qəbul eləmir, onunla əlaqəni biryolluq kəsməyə qərar verir. Oğlan qızın qərarına hörmətlə yanaşır, onu unutmaq üçün uzaq səfərə çıxmağa hazırlaşır. Əslində, Euxeniyada qeyri-adi heç nə yoxdur, eynən Don Kixotun Dulsineyası kimi onu da mələyə çevirən Auqustonun ona ilahi münasibəti, onu Tanrı eşqiylə sevməsidir.

Çamaşırxanada işləyən zəhmətkeş, məsum Rosario mərhum donya Soledadın arzusuna daha uyğun gəlin ola bilər, ancaq sələfi knyaz Mışkin kimi don Auqusto da işin düzələninə yox, qəlizinə gedir. Knyaz Mışkin üzü üzlər görmüş əzabkeş, isterik Nastasya Filippovna ilə məsum, məğrur general qızı Aqlaya Yepançinanın arasında qalanda birincini seçdiyi kimi, don Auqusto da dinclik, rahatlıq mələyi Rosarionu qırağa qoyub isterik, travmatik Euxeniyanın ətəyindən yapışır.

Əslində, Mışkin kimi Auqusto da real insandan daha çox obrazdır, konstruktdur, sələfitək o da evlənmək, arvad-uşaq becərmək üçün yararsızdır, onların nişanı da, nikahı da rəmzi xarakter daşıyır. Nastasya Filippovna gəlinlik paltarında iblis Roqojinə necə qoşulub qaçmışdısa, Euxeniya da Auqusto ilə toyu ərəfəsində az qala gərdəkdən qaçıb Maurisionun yedəyində uzaqlara vasil olur.

***

Bu iki infernal qadın hər iki cənnət sakininin ilahi dəftərxanada qeydə aldırdığı nikahı pozur, mazoxistik bir şövqlə öz fəlakətinə doğru yüyürə-yüyürə, sevinə-sevinə gedir. Nastasya Filippovnanın aqibəti bəllidir, əminəm ki, Euxeniyanın da sonu ondan yaxşı gəlməyəcək. Buna qədər biz onu da, seçdiyi oğlanı da yaxşıca tanımağa imkan tapmışıq. Məğrur Euxeniya sonda Auqustodan nə ala bilərdisə, hamısını alır, hələ ona gələcək birgəlikləri üçün neçə-neçə şərt də qoyur; şərtlərdən biri budur ki, Auqustonun sevimli iti, könül həmdəmi Orfey toydan sonra onlarla bir evdə yaşamayacaq. Ondan ötrü nə qədər ağır şərt, şərtdən çox cəza olsa da, Auqusto bunu da qəbul eləyir.

Maurisio Euxeniyanın ərə getməyinə həvəslə razılaşır, çünki bundan sonra əli-qolu açılacaq, üstəlik, onun Euxeniyanın məşuqu roluna götürülməyə də ümidi var. Fəqət məğrur Euxeniya ayrı plan cızıb: sevgililər birləşib sadədil Auqustonu inandırırlar ki, Maurisioya uzaq bir şəhərdə iş tapsa, oğlan Rosarionu da götürüb buralardan aralanacaq - həm gənc ər-arvadın qulağı dinc olacaq, həm də iki nakam sevgili birlikdə kama çatacaq, bir-birindən təsəlli alacaq, beləliklə hamı bu işdən zərərsiz çıxacaq.

Aydın məsələdir ki, riyakar Euxeniyanın amansız davranışı çox keçmədən öz başında çatlayacaq, ancaq Dostoyevskidən fərqli olaraq Unamuno sinirlərindən qan daman zədəli qadın qəhrəmanının faciəli aqibətini görməyə imkan vermir.

***

Aldadılmış, alçaldılmış, quru yurdda qalmış Auqustonun qəlbində cövlan eləyən fırtına yatandan sonra qəhrəman özünü öldürmək fikrinə düşür. Dostu Viktor Qoti də ona bu çıxış yolunu məsləhət görür.

Tərəddüd keçirən qəhrəman Salamankaya - əsərin müəllifi Migel de Unamunonun hüzuruna yollanır. Müəllif personajı başa salır ki, o heç vəchlə özünə qəsd eləyə bilməz, çünki o nə canlı, nə də ölüdür, gerçək həyatda yoxdur, bu səbəbdən taleyinə sərəncam verməsi də mümkün deyil. Auqusto yalnız ona öz ruhundan nəfəs üfürən Müəllifin xəyalında, yuxusunda canlıdır, ondan kənarda bu adda, bu nişanda adam yoxdur. Doğrudan da, ölümsüz ruh, əbədi ideya öz varlığına necə son qoya bilər? Onu meydandan yalnız ideya sahibi özü götürə bilər.

Əsərin bir fəslində müəllif öz dilindən iki aparıcı personajı - Viktorla Auqusto haqqında deyir: “Bu yazıqlar anlamırlar ki, çalışdıqları vur-tut mənim onların başına gətirdiklərimə bəraət qazandırmaqdır! İnsan özünə bəraət axtaranda əslində ancaq Allaha bəraət vermiş olur. Bu zavallı kitab məxluqlarının da allahı mənəm”.

Migel de Unamunodan öz həqiqiliyinə, müstəqilliyinə rüsxət ala bilməyən Auqusto Müəllifə qarşı qiyama qalxır, bu despotizminə görə onu öldürmək istədiyini gizlətmir. Deyir ki, don Migel, bəlkə gerçək dünyada yaşamayan, nə diri, nə ölü olan uydurma qəhrəman mən yox, elə siz özünüzsünüz? Bəlkə siz mənim qəziyyəmin dünyaya car çəkilməsi üçün vur-tut bir vasitəsiniz? Axı özünüz dönə-dönə vurğulamısınız ki, Don Kixot da, Sanço Pansa da Servantesdən qat-qat real varlıqlardır?..

***

Bu minvalla müəlliflə qəhrəman arasında fəlsəfi-estetik zəmində uzun bir polemika açılır. Bayaqdan özünü öldürmək haqqında düşünən personaj indi müəllifdən yaşamaq üçün möhlət istəyir, ancaq don Migel buna qəti etiraz eləyir, qəhrəmanını inandırmağa çalışır ki, artıq onun yazğısı yazılıb, roman bitib, ox yaydan çıxıb. Allah da gerçək həyatda insana vəzifə tapmayanda onu öldürüb sıradan çıxarır. Yazıya pozu yoxdur, don Auqusto Peres öləcək, özü də müəllifin sərəncamıyla.

İndiyəcən onun azad, sərbəst gəzib-dolaşması, sürpriz dolu təsadüflərlə çilik-ağac oynaması, fani dünyada özünə beş günlük xoşbəxt həyat kirələməyə çalışması - hamısı aldatmaca, hamısı illüziya imiş. Onun taleyi zəhmli Müəllifin iki qüdrət barmağı arasındaymış - o barmağın biri həyat, o biri ölüm adlanır.

Auqusto əli ətəyindən uzun evə qayıdır. Özünə bol süfrə açdırır, bəyəndiyi nemətlərdən o ki var yeyir. Deyirlər, ölümə məhkum dustağın da edam qabağı iştahı belə açılır - görünür, bu da orqanizmin özünü qorumaq, yaşamaq üçün şüursuz, ümidsiz bir cəhdidir.

Axşam Auqusto canını tapşırır. Həkim onun ürəyindən, nökər çox yediyinə görə mədəsindən, qulluqçu isə son vaxtlar hətərən-pətərən danışdığına görə başından öldüyünü güman eləyir. Heç kimin ağlına gəlmir ki, onu öldürən öldürüb. Müəllif göstərir ki, hər bir varlıq yalnız onu yaradanın, hər məxluq da xaliqinin fikrində, xəyalında, yuxusunda yaşayır. Orada doğular, oradan vücuda gəlir, sonda oraya da qayıdır.

***

Roman boyu ana süjetə qoşulu xeyli köməkçi xətt də var. Bu yardımçı hekayələrin hər birində əsərin başlıca ideyasına bağlı bir əhvalat danışılır, həmin əhvalat süjet baxımından olmasa da, mövzu, məzmun baxımından romanın kontekstinə oturdulur.

Epiloq don Auqustonun sadiq köpəyi, adına xüsusi məna yüklənmiş Orfeyin dilindən təqdim olunur: “Yazıq sahibim! İndən belə onun halı necə olacaq? Hara getdi onun danışan dili, arzularla çırpınan qəlbi? Ola bilsin, göylərə çəkilməkdədir - göyün ən uca, ən təmiz qatına, insanların Əflatuni-ilahi adlandırdığı kişinin dediyi o yüksək mərtəbəyə, o yerə ki, orada hər şey bütün rənglərin əsli-kököylə boyanıb. O, başı dünyanın çətirinə dəyənə qədər ucalacaq, o qata qədər ki, bütün qiymətli daşlar, bütün zinətlər dünyaya oradan yağır, günahlardan arınmış bütün saf, məsum insanlar orada məskən salıb, onlar orada hava içir, efirlə nəfəs alırlar. Müqəddəslərə xidmət göstərmiş təmiz ruhlu itlər də o qatda məskunlaşıb...”

Özünə Tanrı bildiyi yiyəsinin öldüyünü görəndə Orfeyin it ruhunu qatı qara duman basır, az keçmiş nökərlə qulluqçunun gözü qarşısında o da it canını ideyalar aləminə tapşırır. Orfey bizi inandırır ki, Platonun cənnətinə düşən ruhlar efirin saf məcunuyla yuyulub təmizlənir, sonda hamı kökünə, orijinalına, mahiyyətinə qovuşur. Xaos dumanı ayazıyır, həyat aydınlığa çıxır, var olan varlıq, cümlə məxluqat əslinə qayıdır.



*F.Uğurlu*

# Sorğu: Fransalıların böyük əksəriyyəti yeni hökumətdən narazıdır



Fransa əhalisinin demək olar ki, 70 faizi Fransua Bayrunun rəhbərlik etdiyi yeni hökumətdən narazıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə məlumat Elabe kompaniyasının BFMTV telekanalı üçün keçirdiyi sosioloji rəy sorğusunun nəticələrində öz əksini tapıb.

Məlumata görə, Fransua Bayrunun ümumi siyasi bəyannaməsinə bir həftədən az vaxt qalıb və fransalıların 68 faizi hökumətin tərkibindən narazılığını ifadə edib. Sorğunun nəticələrinə görə, rəyi soruşulanların 64 faizi Baş nazirin ilk atdığı addımları bəyənməyib, 60 faizi isə əsas vəzifə olaraq sağlamlıq böhranının, əsasən də təcili yardım xidmətindəki problemlərin həllinin prioritet təşkil etməli olduğunu bildirib. Eyni zamanda, fransalıların 46 faizi hələ də təsdiqlənməyən 2025-ci il büdcəsinin qəbulunu vacib sayır, 42 faizi isə hökumətin fermerlərə dəstəyin olmaması ilə bağlı etiraz edənlərin tələblərinə cavab verməsini istəyir.

Qeyd edək ki, Fransua Bayru yanvarın 14-də parlamentdə əsas siyasət vektorlarını açıqlamalıdır. Solçu müxaliflər Baş nazirin siyasi bəyannaməsindən sonra ənənəvi etimad səsvermənin keçirilməyəcəyi təqdirdə, ona qarşı impiçment prosesinə başlayacaqlarını bildiriblər. Prezident Emmanuel Makronun hökumət başçılarının heç biri indiyədək Fransanın bu siyasi ənənəsinə əməl etməyiblər.

# Zelenski: Ukrayna bu il müharibəni bitirmək üçün əlindən gələni edir



Ukrayna bu il müharibəni bitirmək üçün əlindən gələni edir. Müharibənin başa çatması Rusiyanın deyil, Ukrayna və onun tərəfdaşlarının ümumi məqsədidir.

AZƏRTAC xəbər verir ki, bu barədə Prezident Volodimir Zelenski “Ramştayn” formatında keçirilən iclasda çıxışı zamanı bildirib.

“Mən əlimdən gələni edirəm ki, bu il müharibə Ukrayna və bütün Avropa üçün ləyaqətlə başa çatsın. Bunun üçün sizin dəstəyinizə arxalanacağımı da bilirəm. Biz hamımız yadda saxlamalıyıq ki, müharibəyə son qoymaq bizim ümumi məqsədimizdir - Rusiyanın deyil, bizim məqsədimizdir, bunu ukraynalılar, avropalılar, amerikalılar və bir çox qlobal tərəfdaşlarımız istəyir”, - deyə Zelenski bildirib.

O, həmçinin qeyd edib ki, Yaponiya, Səudiyyə Ərəbistanı və Argentina kimi ölkələr də Ukraynaya sülh arzulayır.

Bundan əvvəl cümə axşamı, yanvarın 9-da “Ramştayn” formatında görüş keçirilib və bu görüşə sonuncu dəfə ABŞ-ın səlahiyyət müddəti başa çatan müdafiə naziri Lloyd Ostinin də qatıldığı bildirilir. Bu iclasda Amerika Birləşmiş Ştatları Ukraynaya yeni hərbi yardım paketinin təqdim edilməsini açıqlayıb. Onun məbləği 500 milyon dollar təşkil edir.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“PressInform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Ziya LTD” MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# Ali Məhkəmədən yeni qərar!

## Alimentin miqdarı, uşaqla ünsiyyət...

Boşanmaların artması günümüzdə əsas müzakirə olunan mövzulardan biridir. Bəzi valideynlər boşanma zamanı sadəcə, həyat yoldaşlarından deyil, doğma övladlarından da “ayrılır” - bütün öhdəliklərini, məsuliyyətlərini unudurlar. Bu zaman tərəflər arasında ziddiyyətlər, çəkişmələr, qarşılıqlı ittihamlar başlayır.

Boşanma faktı ilə üz-üzə qalan ailələrdə aliment problemləri yaşanır. Bir çox hallarda aliment ödəməli olan tərəf cürbəcür bəhanələrlə ödənişi həyata keçirmək istəmir. Bunun üçün obyektiv və subyektiv səbəblər tapırlar. Bu məsələdə ziyan çəkən tərəf isə uşaqlar olur.

## Boşanan valideynlər və alimentlə bağlı mühüm qərar

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2024-cü il 20 dekabr tarixli qərarı ilə ailə münasibətləri ilə bağlı bəzi qərarlarına əlavə və dəyişikliklər edilib. Ali Məhkəmənin Mülki Kollegiyasının sədri Sənan Hacıyevin sözlərinə görə, burada ümumi məqsəd ədalət mühakiməsinin səmərəliliyinin artırılması, vətəndaşların hüquq və azadlıqlarının daha effektiv müdafiəsi, uşaqların üstün mənafelərinin qorunması, habelə ayrı-ayrı kateqoriya işlərə baxılması üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsidir. S.Hacıyev Plenum qərarında əks etdirilən dəyişiklikləri açıqlayıb:

“Artıq uşaqla ünsiyyət hüququ məsələsi nikahın pozulması ilə bərabər öz həllini tapa biləcək. Uşaqla ünsiyyətə dair mübahisələr yarandıqda uşaqdan ayrı yaşayan valideyn bu barədə tələblə ayrıca iddia qaldırmaq məcburiyyətində qalmayacaq, nikahın pozulmasına dair işlərə baxılarkən iddia irəli sürmək imkanı olacaq. Bu məsələnin boşanma ilə eyni anda həllini tapması, uşaqların hüquqlarının qorunmasına, valideynləri ilə vaxtında ünsiyyət qurmalarına xidmət edəcək.



## Əməkhaqqının müəyyən misli həddində...

S.Hacıyev, həmçinin vurğulayıb ki, sabit pul məbləğində aliment tutularkən alimentin məbləği konkret rəqəmlə deyil, əməkhaqqının müəyyən misli həddində göstəriləcək: “Bu qayda alimentin məbləğinin minimum əməkhaqqının artımına uyğun olaraq mütəmadi şəkildə indeksasiyasına imkan verəcək və vətəndaşlar artıq yaşayış minimumu xərclərinin yüksəlməsi əsası ilə davamlı olaraq alimentin artırılmasına dair iddia qaldırmaq məcburiyyətindən azad olacaqlar. Belə ki, tutulmuş aliment artırılmış minimum əməkhaqqına mütənasib olaraq, icra qaydasında, heç bir müraciətə zərurət olmadan artacaq. Bu qayda uşaqların üstün mənafeyinin qorunmasına xidmət edəcək, alimentin artırılması ilə bağlı lüzumsuz davamlı məhkəmə çəkişmələrinin aradan qalxmasına yol açaraq indeksasiyanın dərhal reallaşması imkanını yaradacaq. Qətnamə ilə tutulmuş aliment konkret rəqəmlə ifadə edilmədiyi halda isə maraqlı tərəfin ərizəsi əsasında icraya nəzarət edən məhkəmə tərəfindən məsələ öz həllini tapacaq.

Bundan başqa, alimentin artırılmasına dair mübahisələr üzrə qəbul edilmiş qətnamələrdə artırılmış alimentin tutulmasına başlanması artıq əvvəlki kimi qətnamənin qanuni qüvvəyə mindiyi tarixdən deyil, bu barədə ərizənin məhkəməyə verildiyi tarixdən hesablanacaq. Bu hal cavabdeh tərəfin artırılmış həddə alimentin tutulması vaxtını uzatmağa yönələn davranışlarının qarşısını almaqla yanaşı, uşaqların vaxtında zəruri maddi təminat alması hüququnu təmin edəcək.

Uşağa görə aliment ödəyən valideynin tələbi ilə alimentin 50 faizdən çox olmayan məbləğini yetkinlik yaşına çatmayan uşağın adına açılmış bank hesabına köçürmək barədə tələbə də müstəqil iddianın qaldırılması yolu ilə deyil, daha sadə və qısa prosedur olan, qətnamənin icra qaydasında ərizənin verilməsi yolu ilə öz həllini tapa biləcək”.

## Alimentin miqdarı necə təyin olunur?

Mövzunu “Yeni Azərbaycan”a şərh edən vəkil Nadir Məmmədov bildirib ki, Azərbaycan Respublikasının Konstitusiyasında, Qanunvericiliyində və Ailə Məcəlləsində də nəzərdə tutulub ki, aliment uşaqların saxlanılması üçün nəzərdə tutulan ödənişli öhdəçilik və yaxud ərin arvadına, övladlarına qarşı öhdəliyidir: “Aliment ödəyəcək şəxsin rəsmi iş yeri və yaxud rəsmi gəliri varsa, 1 uşaq üçün maaşının və əlavə gəlirlərinin 1/4 hissəsini, 2 uşaq üçün 1/3 hissəsini, 3 və ya daha çox uşaq üçün gəlirlərinin və maaşının 50%-ni ödəyə bilər.

Azərbaycan Respublikasında 2024-cü il üçün yaşayış minimumu” haqqında Qanunda uşağın yaşaması üçün minimum aliment 235 manat nəzərdə tutulub”.

## Valideyn işsizdirsə, aliment necə təyin edilir?

Vəkil qeyd edib ki, əgər aliment ödəyəcək şəxs işsizdirsə və ya onun gəliri sabit deyilsə, o zaman Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 78-ci maddəsinə əsasən, sabit pul məbləği dəyərində aliment tutulacaq: “Bu da yaşayış minimumu və yaxud tərəflərin razılaşması ilə nəzərdə tutulan məbləğ ola bilər. Valideyn alimenti ödəmirsə, həmin şəxsə qarşı məhkəmə tədbirləri həyata keçirilir”.

*Yeganə BAYRAMOVA*

# Azərbaycanın İKT sektoru...

## Ötən il rəqəmsal hökumət sahəsində mühüm addımlar atılıb

Son illər Azərbaycanın informasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru ölkənin iqtisadi strategiyasının mərkəzində dayanaraq, qeyri-neft sektorunun əsas drayverlərindən biri olub. Məlumdur ki, dayanıqlı iqtisadi modelin formalaşdırılması qeyri-neft sektorunun inkişafını zəruri edir. Bu kontekstdə əsasən informasiya və kommunikasiya texnologiyaları sektoru mühüm rol oynayır. 2024-cü il bu sahədə inkişafın yeni mərhələsinin əsasını qoyub. Xüsusilə də rəqəmsal transformasiya, startap ekosisteminin genişləndirilməsi və texnologiya parklarının fəaliyyətində irəliləyişlər əldə edilib.

Müasir dünyada iqtisadi keçidin effektiv və sürətli həyata keçirilməsi rəqəmsallaşmanın və innovativ texnoloji həllərin tətbiqini tələb edir. Son illərdə Azərbaycanda bu istiqamətdə nəzərəçarpan tərəqqi əldə olunub və ötən il bu sahədə xüsusilə əlamətdar olub.

## Rəqəmsal hökümətdə tarixi nəticə...

Ötən il Azərbaycanda rəqəmsal transformasiya və e-idarəetmə sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib. Dövlət xidmətlərinin rəqəmsallaşdırılması çərçivəsində təqdim olunan yeni xidmətlər vətəndaşlar üçün daha əlçatan olub, “ASAN xidmət” və “e-Gov” platformaları üzərindən həyata keçirilən əməliyyatların sayı rekord səviyyəyə çatıb. Bununla yanaşı, rəqəmsal valyuta və blokçeyn texnologiyalarının dövlət və özəl sektorda tətbiqi genişlənərək maliyyə əməliyyatlarının şəffaflığını və təhlükəsizliyini artırıb.

Bu sahədə ən diqqətçəkən addımlardan biri şəxsiyyət vəsiqəsinin fiziki təqdim edilməsinə olan tələbin aradan qaldırılmasıdır. Belə ki, artıq şəxsiyyət vəsiqəsində əks olunan məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təqdim edilə bilər. Vətəndaşlar “myGov” tətbiqi vasitəsilə rəqəmsal şəxsiyyət məlumatlarını müxtəlif üsullarla paylaşa bilirlər.

Rəqəmsal hökumət sahəsində atılan addımlar Azərbaycanın beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinə səbəb olub. İlk dəfə olaraq Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumətin İnkişaf İndeksində (EGDI) ən yüksək kateqoriya olan “Very High EGDI” ölkələr sırasına daxil edilib.

Ölkənin onlayn dövlət xidmətləri və telekommunikasiya infrastrukturu göstəricilərində 21 %-lik artım qeydə alınıb. Bundan əlavə, Elektron İştirakçılıq İndeksində (EPI) 28 % irəliləyişlə Azərbaycan 98-ci yerdən 88-ci yerə yüksəlib. Bu nailiyyətlər Azərbaycanın rəqəmsal transformasiya sahəsində ciddi irəliləyiş əldə etdiyini təsdiqləyir.

Bu uğurlar ölkədə İKT sektorunun inkişafına və qeyri-neft iqtisadiyyatının gücləndirilməsinə töhfə verən mühüm addımların bir hissəsidir. Rəqəmsallaşma istiqamətində görülən işlər Azərbaycanın iqtisadiyyatının dayanıqlılığını artırmaqla yanaşı, xidmət keyfiyyətini də yüksəldir.

## İKT sektoru rəqəmlərdə və gələcəyə baxış!

Son statistik məlumatlar Azərbaycanın informasiya və rabitə sektorunda davamlı inkişafı göstərir. Ötən ilin 11 ayında sektor üzrə gəlirlər 2023-cü ilin eyni dövrü ilə müqayisədə 12,5 % artaraq 3,2 milyard manata çatıb. İKT sektorunun ümumi daxili məhsuldakı payı isə 1,8 %-ə yüksəlib (bir il əvvəl bu rəqəm 1,7 % idi).



Yüksəksürətli və sabit genişzolaqlı internetlə ölkə ərazisinin 100 % təmin olunmasını nəzərdə tutan “Onlayn Azərbaycan” layihəsi çərçivəsində son bir ildə 1 milyon 445,9 min ev, mənzil və biznes subyektinin internetə çıxışı təmin edilib. Bununla da ümumi belə subyektlərin sayı 2 milyon 965,3 minə çatıb.

“Digital Bridge” milli məlumat mübadilə sistemi də mühüm tərəqqiyə nail olub. Ötən il ərzində sistemdə 1 milyarddan çox tranzaksiya həyata keçirilib. Sistemdə inteqrasiya olunan informasiya sistemlərinin sayı 150-ni keçib və gündəlik tranzaksiyaların həcmi 1,5 milyona çatıb.

İKT sektorunda əlavə dəyər yaratmaq, infrastrukturun inkişafını sürətləndirmək, texnoloji sahibkarlar və startaplar üçün əlverişli mühit təmin etmək, maliyyə resurslarına əlçatanlığı artırmaq və kibertəhdidlərə dayanıqlılığı gücləndirmək əsas prioritetlərdir. Bu strateji addımların 2025-ci ildə də sektorda əhəmiyyətli irəliləyişlərə səbəb olacağı gözlənilir.

Statistik məlumatlara əsasən, 2025-ci il üçün rəqəmsal iqtisadiyyatın genişlənməsi ilə bağlı mühüm gözləntilər var. E-ticarət və rəqəmsal ödəniş sistemlərinin daha da inkişafı bu sahədə əsas prioritetlərdən biri olacaq. Bununla bağlı hüquqi tənzimləmələrin gücləndirilməsi planlaşdırılır ki, bu da investorlar üçün daha cəlbedici mühitin yaradılmasına xidmət edəcək.

*Yeganə BAYRAMOVA*


Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**





# Azercell “İşçi Rifahı 2024” mükafatına layiq görüldü

## Mobil operator sənaye təhlükəsizliyi və rifah sahəsində nümunəvi fəaliyyətinə görə təltif edildi

“Azercell Telekom” MMC “Sənaye Təhlükəsizliyi Zirvəsi”ndə “İşçi Rifahı 2024” mükafatı ilə təltif edilib. Tədbir Fövqəladə Hallar Nazirliyinin Azərbaycan Dövlət Əməyin Mühafizəsi və Təhlükəsizlik Texnikası Elmi-Tədqiqat İnstitutunun və “Azərbaycan Sənaye Təhlükəsizliyi Assosiasiyası” İctimai Birliyinin birgə təşkilatçılığı ilə baş tutub. Belə ki, münsiflər heyəti lider mobil operatorun SƏTƏM (Sənaye Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi) sahəsində fəaliyyətini yüksək qiymətləndirib. Azercell işçi rifahı, sənaye təhlükəsizliyi, ətraf mühit standartlarının təkmilləşdirilməsi və iqlim dəyişikliyi ilə mübarizə istiqamətində həyata keçirdiyi layihələrlə fərqlənib.

Qeyd edək ki, “Sıfıra doğru” şüarı altında keçirilən Zirvə toplantısı sənaye təhlükəsizliyi və əməyin mühafizəsi sahəsində qlobal yeniliklərin, eləcə də qabaqcıl təcrübələrin müzakirəsinə həsr olunub. Tədbirdə 350-dən çox dövlət və özəl sektor nümayəndəsi, yüksək vəzifəli şəxslər, iş adamları və sahə üzrə mütəxəssislər iştirak ediblər.

Qeyd edək ki, “Azercell Telekom” MMC insan kapitalına yüksək dəyər verir və təhlükəsiz, dayanıqlı iş mühitinin qurulmasına yönəlmiş ardıcıl təşəbbüslər həyata keçirir. Şirkət sağlamlıq və sosial rifaha yönəlmiş proqramlarla yanaşı, işçiləri ergonomik və rahat iş mühiti ilə təmin edir. Bununla yanaşı, sağlamlıq sığortası, tibbi müayinələrə çıxış, psixoloji dəstək və stressin idarə olunması üzrə təlimlər kimi işçilərin rifahının artırılmasına yönəlmiş proqramlar təklif edir.

“Azercell Telekom” MMC və şirkətin fəaliyyəti haqqında daha ətraflı məlumat əldə etmək üçün rəsmi Azercell səhifəsinə daxil olun.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 3533
Sifariş: 3012
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova